Sosial ədalət və sosial rifah

8

Səs

№ 037 (6478) 26 fevral 2022-ci il. Qiyməti 60 qəpik

## “Azərbaycan-Türkiyə münasibətlərinin bugünkü ali səviyyəyə yüksəlməsində Sizin əvəzsiz rolunuz var”



*Prezident Rəcəb Tayyib Ərdoğanın müdrik və uzaqgörən rəhbərliyi ilə qardaş Türkiyə Respublikasının bütün sahələrdə mühüm nailiyyətlər əldə etdiyini, beynəlxalq aləmdə söz sahibi, böyük nüfuz qazanmış güclü və qüdrətli dövlət olduğunu vurğulayıb.*

# Xocalı soyqırımı: qanlı faciədən 30 il ötür...




## Prezidentin köməkçisi: “Ermənistan dövləti Xocalıya görə hüquqi müstəvidə cavab verməlidir”



4



4

## Ali məktəblərə qəbul imtahanlarının vaxtı açıqlandı

## Rusiya-Ukrayna müharibəsi: bəs sonra nə baş verəcək?



*Rusiyanın Ukraynada hərbi əməliyyatlara başlaması və hadisələrin nə zamana, eləcə də hansı nəticələrlə bitəcəyini ehtimal etmək nə qədər çətin olsa da, müharibənin necə bir ağır bəla olduğunu Azərbaycan xalqı çox yaxşı bilir və dərk edir.*

## DİQQƏT: İnsanları ailədən uzaqlaşdıran SƏBƏBLƏR

16



“Həmişə belə edirsən”, ”Sən, onsuz da, beləsən”, ”Diqqətsizsən” kimi fikirlərdən istifadə edən və ailə həyatında bir cür, sosial ortamlarda başqa cür davranışlar göstərən, həyat yoldaşının dərdinə və sevincinə...

## İtaliyanın Baş naziri: “Qazı Rusiyadan yox, Azərbaycandan və Əlcəzairdən alacağıq”

İtaliyanın Baş naziri Mario Draqi hökumətin təcili iclasını keçirib. SİA-nın verdiyi məlumata görə, Baş nazir Ukrayna ətrafında baş verən hadisələr səbəbindən Rusiyaya qarşı Avropa ölkələrinin və ABŞ-ın tətbiq etdiyi sanksiyalardan danışıb.

6





## “Rusiya dünyaya meydan oxuyur"

13

*Rusiya Ukrayna tərəfindən açıq təcavüzə uğrayır və beynəlxalq hüquq normaları tapdalanır. Rusiya Ukraynanın suveren hüquqlarını pozduğu üçün bu, təcavüzkar müharibə adlandırılır...*



## "Qalatasaray"ın rəqibi "Barselona" oldu!

16

UEFA Avropa Liqasında 1/8 final mərhələsinin püşkü atılıb. İsveçrənin Nyon şəhərində təşkil olunan tədbir Bakı vaxtı...

# “Azərbaycan-Türkiyə münasibətlərinin bugünkü ali səviyyəyə yüksəlməsində Sizin əvəzsiz rolunuz var”

*Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı ad günü münasibətilə təbrik edib*

***Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı ad günü münasibətilə təbrik edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı təbrik məktubunda Prezident Rəcəb Tayyib Ərdoğanın müdrik və uzaqgörən rəhbərliyi ilə qardaş Türkiyə Respublikasının bütün sahələrdə mühüm nailiyyətlər əldə etdiyini, beynəlxalq aləmdə söz sahibi, böyük nüfuz qazanmış güclü və qüdrətli dövlət olduğunu vurğulayıb.***



Təbrik məktubunda deyilir: ”Xalqlarımızın sarsılmaz iradəsindən qaynaqlanan və ”Bir millət iki dövlət” prinsipinə əsaslanan Azərbaycan-Türkiyə münasibətlərinin bugünkü ali səviyyəyə yüksəlməsində Sizin əvəzsiz rolunuz vardır. Birliyimizin və müttəfiqliyimizin möhkəmləndirilməsi yolunda davamlı səyləriniz, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və torpaqlarımızın işğaldan azad edilməsi işinə verdiyiniz daimi dəstək ölkəmizdə Sizə dərin hörmət və ehtiram qazandırmışdır.

Fürsətdən istifadə edərək tarixi əhəmiyyət daşıyan Şuşa Bəyannaməsinin təsdiq edilməsi münasibətilə məmnunluğumu ifadə edirəm. Bu sənəd Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətlərində yeni səhifə açır, regionda sülh və təhlükəsizliyin təmin olunmasına töhfə verir. Biz qardaş Türkiyə ilə gündən-günə yeni məzmunla zənginləşən əməkdaşlığımızı və səmərəli fəaliyyətimizi bundan sonra da birgə səylərimizlə genişləndirmək və şaxələndirmək əzmindəyik.

Əziz Qardaşım,

Sizə Allahdan möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, qardaş Türkiyə xalqının əmin-amanlığı və firavanlığı naminə məsul fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm”.

# "COVID-19 pandemiyası kimi qlobal fövqəladə vəziyyət qlobal yanaşma tələb edir"

*BMT Baş Assambleyasının sədrinin təşkil etdiyi yüksək səviyyəli tematik müzakirələrdə Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyevin videoformatda çıxışı təqdim olunub*

**Fevralın 25-də BMT Baş Assambleyasının sədrinin ”Universal peyvəndlənmə üçün səylərin artırılması” mövzusunda təşkil etdiyi yüksək səviyyəli tematik müzakirələr keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli qisimdə və Qoşulmama Hərəkatının sədri kimi Hərəkata üzv dövlətlər adından videoformatda çıxışı təqdim olunub. Prezident, Qoşulmama Hərəkatının sədri İlham Əliyev öz çıxışında qeyd edib ki, bu toplantı dünyada COVID-19 əleyhinə keyfiyyətli, təhlükəsiz, effektiv və məqbul qiymətə olan peyvəndlərdən istifadə məqsədilə bərabər imkanların təmin edilməsi ilə bağlı problemlərin davam etdiyi vaxta təsadüf edir.**



## Azərbaycan Prezidenti: "Biz bütün ölkələr üçün peyvəndlərə əlçatanlığın təmin olunmasına xidmət edən təşəbbüsləri dəstəkləyirik"

Dövlətimizin başçısı qeyd edib ki, biz, COVID-19 ilə qlobal mübarizə, onun nəzarət altında saxlanılması və yayılmasının qarşısının alınması, habelə dövlətlərə dəstəyin verilməsi üzrə səylərin əlaqələndirilməsində BMT sisteminin fundamental rolunu vurğulayırıq. Bu mənada biz Ümumdünya Səhiyyə Təşkilatının aparıcı rolunu qeyd edirik.

Prezident İlham Əliyev qeyd edib ki, pandemiyanın başladığı dövrdən Qoşulmama Hərəkatı multilateralizm, əməkdaşlıq və həmrəylik ruhunda geniş beynəlxalq ictimaiyyətin səylərini fəal şəkildə səfərbər edərək, pandemiya ilə mübarizə və onun mənfi nəticələrinin aradan qaldırılması baxımından bir sıra uğurlu təşəbbüslər irəli sürüb:

”2020-ci ilin dekabrında BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş Xüsusi Sessiyasının keçirilməsi, habelə ötən ilin mart və dekabr aylarında İnsan Hüquqları Şurası və Baş Assambleya tərəfindən qəbul edilmiş ”COVID-19 pandemiyası ilə mübarizədə bütün ölkələr üçün peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi”nə dair qətnamələr Qoşulmama Hərəkatına üzv dövlətlər adından irəli sürülmüşdür. COVID-19 pandemiyası kimi qlobal fövqəladə vəziyyət qlobal yanaşma tələb edir. Lakin az və orta gəlirli ölkələrdə peyvəndlərin tədarükünün aşağı səviyyədə olması bu baxımdan hələ də çox işlərin görülməli olduğunu göstərir.

COVID-19 peyvəndlərinin bölgüsü baxımından inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş ölkələr arasında qeyri-bərabərlik beynəlxalq ictimaiyyətin qısa zamanda pandemiyanın tamamilə aradan qaldırılmasına nail olmasının qarşısını alır. Bu, həm də Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyinin reallaşdırılmasının davam etdirilməsi də daxil edilməlidir:

”Biz, həmçinin COVID-19 peyvəndlərini ianə edən ölkələrin səylərini alqışlayırıq və bütün dövlətlərə buna ehtiyacı olan az və orta gəlirli ölkələrlə peyvənd dozalarını bölüşməyi fəal şəkildə təşviq edirik.

Bu kontekstdə biz bütün ölkələr üçün COVID-19 peyvəndlərinin məqbul qiymətə, bərabər, universal və vaxtında əlçatanlığın təmin olunmasına xidmət edən COVAX Mexanizmi, COVAX Öncədən Bazar Öhdəliyi, COVAX Öncədən Bazar Öhdəliyi Forumu və digər aidiyyəti konstruktiv təşəbbüsləri yüksək qiymətləndirir və dəstəkləyirik. Bundan əlavə, BMT sülhməramlılarının mürəkkəb vəziyyətlə üzləşdiyini nəzərə alaraq, BMT-nin sülhməramlı əməliyyatlarına COVID-19 əleyhinə peyvənd ianə edən ölkələrin səylərini alqışlayırıq.

Bütün ölkələrin, beynəlxalq təşkilatların və aidiyyəti tərəfdaşların milli və regional hüquqi çərçivəyə uyğun olaraq peyvənd istehsalı, paylanılması və ədalətli qiymət qoyulması məsələlərində şəffaflığa mane olur.”

## İlham Əliyev: "Bu günədək Azərbaycanda yetkin əhalinin 68 faizinə COVID-19 peyvəndin hər iki dozası vurulub"

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, səhiyyə sisteminin davamlı fəaliyyətinin təmin edilməsi və pandemiya ilə mübarizədə səmərəli addımların atılması üçün əsas səhiyyə xidmətlərinin bütün müvafiq aspektlərinin gücləndirilməsi vacibdir. Buraya müxtəlif addımlarla yanaşı, səhiyyənin universal əlçatanlığı üçün fasiləsiz peyvəndlənmə proqramlarına bağlı öhdəlik götürmələri vacibdir. COVID-19 əleyhinə peyvəndlərin məqbul qiymətə, vaxtında, bərabər və universal əlçatanlığına mane ola biləcək möhtəkirliyin, lazımsız ixrac nəzarətinin və lüzumsuz artıq tədarükün qarşısının alınması ilə bağlı ölkələr tərəfindən təcili addımların atılması eyni dərəcədə əhəmiyyətlidir.”

Prezident İlham əliyev bildirib ki, Azərbaycan COVID-19 pandemiyasının nəzarətdə saxlanılması üçün təsirli və adekvat tədbirlərin həyata keçirilməsini davam etdirir. Ölkəmizdə peyvəndlənmə kampaniyasına 2021-ci ilin yanvarında başlanılıb. Bu günədək ölkədə yetkin əhalinin 68 faizinə peyvəndin hər iki dozası vurulub.

COVID-dən əziyyət çəkmiş əhali və sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün bu ilin dövlət büdcəsindən 1.6 milyard ABŞ dolları məbləğində maliyyə yardımı ayrılıb:

”Azərbaycan pandemiya, ”peyvənd millətçiliyi” və peyvəndlərdən istifadə ilə bağlı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında qeyri-bərabərliyə qarşı beynəlxalq həmrəyliyin gücləndirilməsi istiqamətində vacib qlobal təşəbbüslərlə çıxış edib. BMT Baş Assambleyasının Xüsusi Sessiyası, peyvəndlərdən bərabər və universal istifadənin təmin edilməsinə dair qətnamələr bunun bariz nümunəsidir. Fürsətdən istifadə edərək, həmin təşəbbüsləri dəstəkləmiş bütün üzv dövlətlərə minnətdarlığımı bildirirəm.

Həmrəylik əlaməti olaraq, koronavirusla mübarizəni dəstəkləmək məqsədilə Azərbaycan birbaşa və ya Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə 80-ə qədər ölkəyə maliyyə və humanitar yardımı etmişdir. Bununla yanaşı, biz 5 ölkəyə peyvənd ianəsi etmişik və bu iş davam etdiriləcək. Hazırda biz Qoşulmama Hərəkatına üzv olan 14 ölkəyə təqribən bir milyon doza peyvəndin ianə edilməsi prosesindəyik.

İndi biz post-COVID-19 dövrü üçün fikir mübadiləsinin aparılması və Hərəkatın mövqeyinin formalaşdırılması məqsədilə Qoşulmama Hərəkatına üzv dövlətlərin növbəti yüksək səviyyəli iclasının təşkil edilməsi üzərində işləyirik.”

***Prezident İlham Əliyev rəsmi "Facebook" səhifəsində Xocalı soyqırımının ildönümü ilə bağlı paylaşımda "Ruhlar ölməz, ədalət itməz" sözləri qeyd olunub. Bəli, artıq nə ruhlar ölüb, nə də ədalət itib. Bu gün işğalçı və təcavüzkar Ermənistanın niyyəti baş tutmadı. Xalqımız 44 günlük müharibədə öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə daha da mətnləşdi, qəhrəmanlıq və dəyanət nümayiş etdirdi.***

# XOCALI 30 - "RUHLAR ÖLMƏZ, ƏDALƏT İTMƏZ"

## İLHAM ƏLİYEV: "Biz Xocalı qurbanlarının intiqamını döyüş meydanında aldıq"




### "AZƏRBAYCAN GÜCLÜ DÖVLƏT KİMİ HEÇ VAXT İMKAN VERMƏZ Kİ, BİR DAHA ERMƏNİ FAŞİZMİ BAŞ QALDIRSIN"

Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında bildirdi ki, erməni faşizminə bundan sonra istəklərinə nail olmağa imkan verilməyəcək: "Biz Xocalı qurbanlarının intiqamını döyüş meydanında aldıq. 44 gün davam edən İkinci Qarabağ müharibəsində Ermənistan ordusunu darmadağın edərək, öz tarixi torpaqlarımızı işğalçılardan azad edərək, o cümlədən Xocalı qurbanlarının qanını da aldıq. Azərbaycan güclü dövlət kimi heç vaxt imkan verməz ki, bir daha erməni faşizmi baş qaldırsın, halbuki belə meyillər görünməkdədir. Bu gün Azərbaycan öz fəaliyyəti ilə bölgənin gələcək inkişafına töhfə verir, bölgədə sabitliyin tam bərqərar olması üçün əməli-praktiki addımlar atır".







Böyük rus şairi A.S.Puşkin uzaqgörənliklə ermənilər haqqında" sən kölə, sən oğru, sən ermənisən" fikrini söyləmişdir. Həmin fikir bu gün də tam təsdiqini tapır. Və bu gün torpaq oğruları olan bu kölələrə igid və qəhrəman oğullarımız 44 gün davam edən İkinci Qarabağ müharibəsində Ermənistan ordusunu darmadağın edərək, öz tarixi torpaqlarımızı işğalçılardan azad edərək, o cümlədən Xocalı qurbanlarının qanını da aldı və onlara yerini göstərdi.

### BU BƏŞƏRİ CİNAYƏT CƏZASIZ QALMAMALIDIR

1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilər sovet ordusunun 366-cı motoatıcı alayının iştirakı ilə Xocalıda XX əsrin sonlarında insanlığa qarşı ən böyük cinayəti törətdilər. Hücumdan əvvəl, fevralın 25-i axşam şəhər toplardan və ağır artilleriyadan şiddətli atəşə tutdu. Yaşayış məntəqəsində qalan təqribən 2500 nəfər Ağdama çatmaq ümidi ilə Xocalını tərk etdi. Amma onlardan 613-ü qətliamın qurbanına çevrildi. Bu soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla 613 Xocalı sakini qətlə yetirildi. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi. Düşmən tərəfindən yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 nəfər əsir, 150-si itkin düşdü.

Qeyd edək ki, 7000 nəfər əhalisi olan Xocalı Xankəndindən 10 kilometr cənub-şərqdə Ağdam-Şuşa, Əsgəran-Xankəndi yolunun üstündə yerləşir. Qarabağdakı yeganə aeroport da Xocalıda idi. Ermənilərin Xocalıya əsas maraqları da şəhərin strateji mövqeyə malik olması ilə əlaqədar idi. Xocalı həm də qədim insanların məskunlaşdığı yerdir. İşğaldan əvvəl şəhərdə toxuculuq fabriki, 2 orta və 2 natamam məktəb var idi. İndi onlardan əsər-əlamət yoxdur. Ən dəhşətlisi də o idi ki, ermənilər Xocalıları xüsusi amansızlıq və qəddarlıqla qətlə yetirmişlər. Xocalının işğalına dair istintaq materialları göstərir ki, hücumda mayor S.Ohonyının (Ermənistanın eks-müdafiə naziri) komandalığı altında 366-cı alayın 2-ci batalyonu, Y.Nabokivinin komandalığı ilə 3-cü batalyonu, qərargah rəisi V.Çitçyan olan 1-ci batalyonu və alayda xidmət edən 50-dən artıq erməni zabit və giziri iştirak etmişdir. Onlar misilsiz qəddarlıq nümayiş etdirirdilər. Amansızlıqla qətlə yetirilənlərdən 56 nəfəri diri-diri yandırılmış, başları kəsilmiş, gözləri çıxarılmış, baş və aşağı ətraflarının dərisi soyulmuşdur. Erməni ideoloqları bu qətillərdən, qəddarlıqlardan sevinclə söhbət açırlar. Onların xaç atalarından sayılan Zori Balayan 1996-cı ildə yazdığı "Ruhumuzun dirçəlişi" adlı kitabında Xocalıda törətdikləri soyqırımı haqqında belə yazır: "Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən qəhrəman əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına qoydu. Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şey daha 3 türk uşağına etdik. Mən ixtisasca həkiməm. Humanist peşə sahibi olduğum üçün mən belə hərəkət etməməliyəm, ancaq mən erməniyəm və bir erməni kimi öz vəzifəmi yerinə yetirirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr edəcək".

Vəhşiləşmiş ermənilərin dinc əhaliyə qeyri-insani qəddarlıqla divan tutmasının daha bir səbəbi vardır. Bunu Ermənistanın eks prezidenti Serj Sarkisyan çox həyasız və sərt şəkildə söyləmişdir: "Xocalı hadisəsinə qədər azərbaycanlılar elə düşünürdülər ki, bizimlə zarafat etmək olar, onlar elə bilirdilər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməzlər. Biz bu stereotipu qırmağa nail olduq". Deməli, bu amansız qırğın bilərəkdən, vahimələndirmə aktı kimi planlaşdırılmışdır. İnsanlığa sığmayan vəhşiliyin bu cür etirafını ancaq Serj Sarkisyan və onun kimilər bacarardı. Çünki onların damarlarında insan adlı varlığın yox, hələ də adı dəqiq bilinməyən bir qanicənin, türk düşməninin qanı axır. Bütün bunlardan sonra dünya ictimaiyyətinin erməni vəhşiliyinə göz yumması, Qərbin nə qədər ikiüzlü və iyrənc siyasət yeritdiyini, demokratiya və insan haqları adı altında milli, dini ayrı-seçkiliklə məşğul olduğunu bir daha sübut edir.

### MƏHZ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XALQIN TƏKİDLİ TƏLƏBİ İLƏ HAKİMİYYƏTƏ QAYIDIŞINDAN SONRA XOCALI SOYQIRIMINA SİYASİ-HÜQUQİ QİYMƏT VERİLDİ

Xatırlatmaq lazımdır ki, məhz ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra bir çox faciələrimiz kimi, Xocalı soyqırımına da siyasi-hüquqi qiymətin verilməsi mümkün oldu. Ümummilli liderin təşəbbüsü ilə Milli Məclis 1994-cü il fevralın 24-də "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etmiş, sənəddə hadisənin baş vermə səbəbləri, günahkarları təfsilatı ilə açıqlandı. Ulu Öndər Heydər Əliyevin 1997-ci il fevralın 25-də imzaladığı sərəncama əsasən hər il respublikamızın ərazisində fevralın 26-sı saat 17:00-da 1 dəqiqəlik sükut həyata keçirilir.

Xocalı faciəsinin dünyada soyqırımı kimi tanıdılması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi altında ardıcıl və sistemli tədbirlər həyata keçirilir. 2008-ci il fevralın 6-da Prezident İlham Əliyevin təşəbbüsü ilə Bakının Xətai prospektində "Ana fəryadı" abidəsi ucaldılmışdır. Ölkə başçısının 18 yanvar 2022-ci il tarixli "Xocalı soyqırımının otuzuncu ildönümü haqqında" imzaladığı sərəncam bu baxımdan olduqca böyük əhəmiyyət kəsb edir. Faciənin hər ildönümündə dünyanın bir çox ölkələrində Xocalı qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, piketlər keçirilir, filmlər, materiallar nümayiş etdirilir. Bu işdə Heydər Əliyev Fondunun müstəsna rolu vardır. Bu baxımdan, fondun Prezidenti, Azərbaycan Respublikasının birinci vitse-prezidenti, ölkəmizin birinci xanımı, UNESKO və İESEKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələri xüsusi xatırlatmaq lazımdır. Eləcə də Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Təşkilatının (İKT) Gənclər Fondunun əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyətə başlamış "Xocalıya ədalət" kampaniyası ildən-ilə genişlənməkdədir. Aparılan bu səmərəli fəaliyyətin nəticəsidir ki, indiyənə qədər Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Ruminya, Çexiya, İordaniya, Honduras və digər iyirmidən çox ölkənin parlamentləri, habelə ABŞ-ın 20 dən artıq ştatının qanunverici orqanı və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanımışdır.

2018-ci ildə Heydər Əliyev Fondunun Təşəbbüsü ilə İstanbul şəhərinin Bağçalar rayonunda Böyük Dostluq Parkı açılmış və burada Xocalı soyqırımı abidəsi ucaldılmışdır. Bir sözlə, Xocalı faciəsi Azərbaycan xalqının heç vaxt unudulmayacaq və dünya Xocalı faciəsi haqqında həqiqəti bilməli və onu unutmamalıdır. Bu bəşəri cinayət cəzasız qalmamalıdır. Prezident İlham Əliyev cənablarının dəfələrlə qeyd etdiyi kimi, bizim siyasətimiz, xüsusilə, xaricdəki fəaliyyətimiz, Xocalı haqqında həqiqətləri dünya birliyinə çatdırmağımız vəziyyəti artıq dəyişmişdir: "Mən əminəm ki, gün gələcək Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq göstərən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəkdir. O gün gələcəkdir".

**RƏFİQƏ HÜSEYNOVA**

# Pandemiyadan yeganə çıxış yolu kollektiv immunitetin formalaşmasıdır

**_Dünyamız üçün bu gün təhlükəli virusa çevrilən COVID-19 pandemiyası ilə mübarizə hələ də davam edir. Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirusun yayılmasınının 2020-ci il martın 11-də pandemiya elan edilməsindən sonra respublikamızda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması yönündə effektiv tədbirlər həyata keçirilir. Azərbaycanda COVID-19 koronavirus infeksiyasına ölkədə ilk yoluxma hadisəsi 2020-ci il fevralın 28-də qeydə alındı. Yoluxma həmin tarixdən bu günə qədər davam etməkdədir._**

Azərbaycanda koronavirusun geniş yayılmasının qarşısını almaq məqsədilə bütün zəruri, qabaqlayıcı addımlar atılıb. Azərbaycan modeli dünya tərəifdən nümunəvi model olaraq qəbul olundu.



Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli iradəsi və təşəbbüskarlığı sayəsində ilk gündən ölkəmizdə koronavirusun geniş yayılmasının qarşısını almaq məqsədilə vətəndaşlarımızın sağlamlığının qorunmasına xidmət edən bütün zəruri, qabaqlayıcı addımlar atılıb. Belə ki, ölkə Prezidenti İlham Əliyevin göstərişi əsasında Nazirlər Kabinetinin Sərəncamı ilə 2020-ci il 30 yanvar tarixində "Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı təsdiq edilib. 2020-ci il 27 fevral tarixində isə koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında Operativ Qərargah yaradıldı. Həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində Azərbaycan dünyada pandemiya qurbanlarının sayına görə sonuncu yerlərdən birində qərarlaşır.

### "BİZ QISA MÜDDƏTDƏ ON, SONRADAN İSƏ DAHA İKİ - CƏMİ 12 MODUL TİPLİ XƏSTƏXANA ALA BİLDİK"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində TASS agentliyində bu ölkənin aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşü zamanı Birinci Xanım Mehriban Əliyeva pandemiyaya qarşı ölkəmizdə həyata keçirilən tədbirlər ətrafında məlumat verərkən bildirib ki, biz birinci mərhələdə sərhədlərin bağlanması barədə qərarı kifayət qədər tez qəbul etdik: "Mart ayı idi. Bu, əlbəttə, müəyyən dərəcədə kömək etdi, lakin hadisələrin sonrakı gedişi göstərdi ki, güclü, ciddi karantin rejimləri nə dərəcədə kifayət imiş. Bundan başqa tez bir zamanda daha bir vacib tədbir görülməli idi və komanda bu işin öhdəsindən gəldi". Səhiyyə sahəsində görülən işlərə nəzər salan Mehriban Əliyeva "Biz qısa müddətdə on, sonradan isə daha iki - cəmi 12 modul tipli xəstəxana ala bildik"- deyərək, onu da qeyd edib ki, həmin xəstəxanalar çox qısa müddətdə ölkəyə gətirildi və yığıldı: "Bir ildən sonra, ilk ilin təcrübəsinə əsaslanaraq, hansı avadanlığın, hansı xəstəxanaların bizə lazım olduğunu biz dəqiq bilirdik. Məsələn, pandemiyanın ikinci ilində biz artıq sırf reanimasiya çarpayıları ilə təchiz olunmuş modul tipli xəstəxanalar sifariş edirdik, çünki aydın oldu ki, adi çarpayılarla problem olmayacaq, reanimasiya çarpayıları ilə isə ola bilər".

### "BU GÜNƏ QƏDƏR BİZDƏ YAŞI 18-DƏN YUXARI OLAN İNSANLARIN TƏQRİBƏN 70 FAİZİ İKİ DOZA VAKSİN ALIB"

Əlbəttə ki, pandemiyadan yeganə çıxış yolu əhalidə virusa qarşı kollektiv immunitetin formalaşmasıdır. Kollektiv immunitetin qısa müddətdə və təhlükəsiz yolla formalaşması yalnız vaksinasiya ilə mümkündür. Qeyd etdiyimiz kimi, ölkədə kollektiv immunitetin formalaşması istiqamətində artıq bir sıra tədbirlər görülmüşdür. Bu günün reallığı onu deməyə əsas verir ki, koronovirusa qalib gəlməyin yeganə yolu vaksinasiya olunmaqdır. Bu gün artıq Azərbaycan da daxil olmaqla bir çox ölkələrdə əhali koronavirusa qarşı peyvənd olunur. Vaksinasiyaya start verən Avropa İttifaqından bir ay sonra Azərbaycanda bu prosesə başlanılıb. Azərbaycan Cənubi Qafqazda isə ilk olaraq vaksinasiya işlərinə start vermiş ölkədir. Ölkəmizdə koronavirus əleyhinə vaksinasiya prosesi 2021-ci il yanvarın 18-də başlayıb. Bu proses 2021-2022-ci illər üçün təsdiqlənmiş Vaksinasiya Strategiyası çərçivəsində aparılır. Mehriban xanım Əliyevanın bildirdiyi kimi, ölkəyə vaksinlər kifayət qədər tez çatdırıldı: "Bunlar Çin vaksinləri, növbəti mərhələdə Rusiya vaksinləri idi. COVAX layihəsi xətti ilə Avropa vaksinləri də aldıq. Yəni, vaksinləri seçmək imkanı vardı. Təbii ki, vaksinasiyanın könüllü olacağı qərara alındı və seçim vardı. Bu günə qədər bizdə yaşı 18-dən yuxarı olan insanların təqribən 70 faizi iki doza vaksin alıb. Ona görə ki, bizdə əsasən yaşı 18-dən yuxarı olan insanlar vaksinlənir. Uşaqlar üçün vaksinləmə yalnız valideynlərin qərarı ilə həyata keçirilir, məcburi vaksinləmə yoxdur. Səhiyyə Nazirliyi belə də elan edir ki, bu, yalnız valideynlərin qərarı ilə həyata keçir. Ona görə də bu iki tədbirin kompleksi ən optimal ssenari üzrə hərəkət etməyə imkan verdi. Əlbəttə, belə bir ehtiyatlı optimizm var ki, "omikron" epidemiyanın sonu ola bilər. Bununla bərabər, başqa versiyalar da səslənir. Deyirlər ki, virusun daha artıq təhlükəli, daha ölümcül yeni versiyaları yarana bilər. Lakin bütövlükdə keçilmiş yolu təhlil edərək bu gün mən bu iki komponenti əsas hesab edirəm: tezliklə yüksək iş qabiliyyətli, çox düzgün komanda yaratmaq, - vurğulamaq istəyirəm ki, bu komanda təkcə həkimlərdən ibarət olmamalıdır, - ikincisi, biz cəmiyyətə fikrimizcə, çox yoxlanılmış və çox düzgün ismarıclar vermişik. Bu, öz təsirini göstərib".

Bu günün reallığı onu deməyə əsas verir ki, koronovirusa qalib gəlməyin yeganə yolu vaksinasiya olunmaqdır. Bu proses 2021-2022-ci illər üçün təsdiqlənmiş Vaksinasiya Strategiyası çərçivəsində aparılır. Vaksinasiya zamanı "CoronaVac", "Vaxzevria", "Sputnic V", "Pfizer" kimi peyvəndləri istifadə edilir. Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə 32 min 591 doza vaksin vurulub. Gün ərzində birinci doza üzrə vurulan vaksinlərin sayı 2209, ikinci doza üzrə 1509, üç və daha çox doza vaksinlərin sayı 27 min 210, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı isə 1663-dür.

Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı 12 milyon 896 min 808, birinci mərhələ üzrə vurulan peyvəndlərin ümumi sayı 5 milyon 293 min 8, ikinci mərhələ üzrə 4 milyon 780 min 282, üç və daha çox doza vaksinlərin sayı 2 milyon 623 min 773, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 199 min 741-dir. Peyvəndlənmənin aparılması hər bir insanın özünü və ətrafındakıları qorumaq üçün ən yaxşı vasitədir ki, hər kəs bu məsuliyyəti dərk edib vaksin olunmalıdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Prezidentin köməkçisi: "Ermənistan dövləti Xocalıya görə hüquqi müstəvidə cavab verməlidir"



***Xocalı tək Azərbaycanın faciəsi deyil, bu, bəşəriyyətin ləyaqətinin alçaldılması idi. Xocalı bütövlükdə beynəlxalq ictimaiyyətin faciəsidir. SİA-nın məlumatına görə, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı konfransda deyib.***

H.Hacıyev bildirib ki, Xocalı mütəşəkkil hərbi qüvvələrin keçirdiyi əməliyyat zamanı işğal olunub, soyqırımı törədilib:"Ermənistan Xocalıya, törətdiyi digər qətliamlara görə hüquqi müstəvidə cavab verməlidir. Ermənistan cəmiyyəti də tarixlərində olan bu qara səhifəyə görə mütləq üzr istəməlidir".

# "Xocalı soyqırımı Ermənistanın irqçi siyasətinin bariz nümunəsidir"

***Xocalıda insanların qətlə yetirilməsinin yeganə səbəbi onların azərbaycanlı olması idi. Bu, Ermənistan tərəfindən aparılan irqçi siyasətin bariz nümunəsidir. SİA-nın məlumatına görə, bunu xariic işlər naziri Ceyhun Bayramov Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı konfransda deyib.***



O qeyd edib ki, Azərbaycanın hüquq mühafizə orqanları tərəfindən Xocalı soyqırımının hər tərəfli araşdırılması istintaq tədbirləri zamanı bunun soyqırım olması sübuta yetirilib. "Hazırki dövrə qədər 17 dövlətin milli qanunvericilik orqanı və Amerika Birləşmiş Ştatlarının 23 ştatı bu soyqırımını kəskin şəkildə psiləyərk müvafiq qərar və qətnamələr qəbul edib. Əfsuslar olsun ki, bütün bunlara baxmayaraq, bu günə qədər bu cinayəti törədənlər ədalət məhkəməsi qarşısında cavab verməyib'", - deyə o bildirib.

# Ali məktəblərə qəbul imtahanlarının vaxtı açıqlandı

Ali məktəblərə qəbul imtahanlarının vaxtı açıqlanıb. SİA-nın verdiyi məlumata görə, Dövlət İmtahan Mərkəzinin sədri Məleykə Abbazadə dünən keçirdiyi mətbuat konfransında bildirib ki, ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsi üzrə iştirakçılara yenə də 2 dəfə cəhd etmək imkanının verilməsi nəzərdə tutulur:"III qrup üzrə ilk imtahan 21 may, II qrup üzrə 22 may, I qrupa sənəd verən abituriyentlərin bir hissəsi 4 iyun, yerdə qalan hissəsi isə 5 iyunda imtahan verəcək. 5 iyunda IV qrup üzrə də imtahan keçiriləcək. II cəhd üzrə imtahanlar isə III qrup üzrə 6 iyul, II qrup üzrə 7 iyul, I qrup üzrə 20-21 iyul, IV qrup üzrə isə 21 iyul tarixində keçiriləcək. Cari və əvvəlki illərin məzunları eyni gündə imtahan verirlər".



***Səbinə Hüseynli***

# Xocalı soyqırımı - bəşəriyyətə və insanlığa qarşı yönəlmiş cinayət




***Otuz il əvvəl erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir. Əlbəttə ki, erməni-rus hərbi birləşmələri Xocalıda terror planını əvvəldən hazırlanmışdılar. Dövlət başçısının Sərəncamı ilə bu il Xocalı soyqırımının 30-cu ildönümü qeyd edilir.***






1992-ci il yanvarın 16-da keçirilən "Xüsusi müşavirə" sözügedən planın tərtib edilməsinə xidmət etmişdir. "Xüsusi müşavirə"də "Hoydad" və "ASALA" erməni terror təşkilatlarının nümayəndələri ilə yanaşı, Xankəndidə yerləşdirilmiş ruslara məxsus 366-cı motoatıcı alayın komandiri polkovnik Zarviqorov da iştirak etmişdi. 1992-ci ilin yanvar ayında Paris yaxınlığında qeyri-leqal məxfi təlim düşərgəsi yaratmış "ASALA" erməni terrorçu təşkilatının bir qrup üzvü 26 nəfərlik dəstə, mayor Aqşin Mimonyanın başçılığı ilə Xankəndinə gəlmişdi. Müşavirədən sonra 366-cı alayın tərkibində edilən dəyişikliklər xüsusi maraq doğurur. Belə ki, həmin il yanvarın 23-də 366-cı alayında 93\5 nömrəli sərəncam imzalanmışdı. Alayın daxili möhürü ilə təsdiq olunmuş sərəncama əsasən, alayda xidmət edən gürcülər, tatarlar, belaruslar, türkmənlər, qazaxlar və ləzgilər ordudan təxris olunmuşdur. Beləliklə, alaydan tərxis olunmuşların yerini xüsusi təlim keçmiş "Haydad"çılar tutmuşlar.

Xocalı soyqırımı ilə ermənilər Xocalının 1992-ci il 26 fevralda yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Ermənilərin "burnunun qanamalarını" soyqırımı kimi qələmə verən bəzi dövlətlərə əsl soyqırımının necə olmasını sübut etmək üçün Xocalı faciəsinin kadrlarını göstərmək kifayətdir.

### PLANLAŞDIRILMIŞ KÜTLƏVİ VƏ AMANSIZ QIRĞIN AKTI

1992-ci ilin 26 fevral qanlı faciəsinə kimi Xocalıda 7 min əhali yaşayırdı. Dörd tərəfdən erməni terrorçu dəstələri tərəfindən əhatə olunan şəhər artilleriya və ağır hərbi texnikadan güclü və fasiləsiz atəşə tutuldu. Xocalıya hücum əməliyyatına 366-cı alayın ikinci taqımının komandiri Seyran Ohanyan, üçüncü taqımının komandiri Yevgeni Nabokix, birinci taqımının qərargah rəisi Valeri Çitçyan rəhbərlik etmişlər. Əməliyyata alayın 90-dan çox tankı, piyada döyüş maşını və digər hərbi texnikası cəlb edilmişdir. Az bir vaxt ərzində şəhərdə böyük miqyaslı yanğınlar baş verdi və şəhər tamamilə alova bürünür. Şəhərin azsaylı müdafiəçiləri və yerli əhalidən sağ qalanlar buranı tərk etməyə məcbur oldular. Fevralın 26-sı səhər saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən işğal edildi. Xocalı bir gecənin içərisində yerlə yeksan olundu. Beləliklə, soyuq və qarlı fevral gecəsində minlərlə dinc sakin girov götürüldü. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı şəhəri isə yer üzündən silindi. Xocalı soyqırımının nəticələri çox dəhşətli idi. Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində, Bu kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Qabaqcadan planlaşdırılmış kütləvi və amansız qırğın aktı həmin ərazidə yaşayan insanları məhz azərbaycanlı olduqlarına görə tamamilə məhv etmək niyyəti ilə törədilmişdir. Azğınlaşmış cəlladlar insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və ya yandırmış, cəsədlərin bir qismini minalamışlar.

### XOCALI QƏTLİAM KİMİ QƏTİYYƏTLƏ PİSLƏNİLİR

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz ədalətli hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Belə ki, bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayətdir.

Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürəkağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondu böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Xocalı soyqırımının dünya miqyasında tanıdılması sahəsində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilmişdir. Ruminiya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya parlamentləri, Böyük Britaniyanın tərkibindəki Şotlandiya parlamenti, eləcə də Amerika Birləşmiş Ştatlarının 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləmişlər.

Xocalı şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi üçün dövlət tərəfindən bir sıra tədbirlər görülmüşdür. Bakı şəhərində, ölkəmizin digər şəhər və rayonlarında Xocalı qurbanlarına abidələr ucaldılmış, Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1951-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsbit edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin əldə etdiyi möhtəşəm Zəfər sayəsində ölkəmizin beynəlxalq miqyasda tanınmış torpaqlarının Ermənistan tərəfindən işğalına son qoyuldu. Azərbaycan döyüş meydanında Zəfər çaldı. Şəhidlərimizin qisası alındı.

***Zümrüd BAYRAMOVA***

# Rusiya-Ukrayna müharibəsi: bəs sonra nə baş verəcək?



### İlham Əliyev: ”Bu, uzunmüddətli prosesin başlanğıcıdır”

Rusiyanın Ukraynada hərbi əməliyyatlara başlaması və hadisələrin nə zamana, eləcə də hansı nəticələrlə bitəcəyini ehtimal etmək nə qədər çətin olsa da, müharibənin necə bir ağır bəla olduğunu Azərbaycan xalqı çox yaxşı bilir və dərk edir. Məhz bu xüsusdan qeyd edə bilərik ki, tərəflər arasında qısa zamanda anlaşma yaranmasın və kütləvi insan itkiləri yaşanmasın, uzun illər hesabına insan əməli ilə ərsəyə gələn şəhərlər, kəndlər, qəsəbələr dağıdılmasın...

Bu gün əminliklə deyə bilərik ki, həm Rusiya, həm də Ukrayna ilə tarixi bağlarımız mövcuddur və bu amildən də nəticə hasil edə bilərik ki, nə sadə ukraynalılar, nə də ki, sadə ruslar müharibənin gətirdiyi bəlaları haqq etmirlər. Hər iki ölkənin xalqları İkinci Dünya Müharibəsində ən çox insan tələfatı verən, şəhərləri, kəndləri, qəsəbələri dağıdılan, yer üzündən silinən ölkələrdirlər və bu gün də həmin ölkələrin xalqları o məşəqqətləri unutmurlar.

Bu gün Azərbaycanda da bir çoxları hadisələrin hansı istiqamətdə cərəyan edəcəyi, ölkəmizin sözügedən savaşa necə münasibət göstərəcəyi ilə bağlı narahatlıq nümayiş etdirirlər.

### Azərbaycan Prezidenti: “Rusiya ilə çox sıx işləyirik, Ukrayna ilə də bizim münasibətlərimiz inkişaf edir”

Lakin digər tərəfdən, Moskva ilə Kiyev arasında yaşanan gərginliklərə ən yaxşı münasibəti də Azərbaycan Prezidenti İlham Əliyev TASS agentliyinə verdiyi müsahibəsində vurğulayıb. Məhz həmin fikirlərdən nəticə çıxarmaqla analitik təhlilimizi apara bilərik. Dövlətimizin başçısı müsahibəsi zamanı qeyd edib ki, istər Rusiya, istərsə də Ukrayna ilə münasibətlərimiz inkişaf edir. SİTAT: ”

Rusiya ilə çox sıx işləyirik, Ukrayna ilə də bizim münasibətlərimiz inkişaf edir. Nəyisə təxmin edə bilərəm, lakin əminəm ki, dediyim kimi, bilavasitə cəlb edilənlər hər şeyi proqnozlaşdıra bilməzlər. Bunun üçün planları bilmək lazımdır. Bunun üçün Rusiya rəhbərliyinin planlarını, Ukrayna rəhbərliyinin planlarını, imkanlarını bilmək lazımdır”.

Göründüyü kimi, ölkə rəhbərimiz də mövcud situasiyanın hansı istiqamətə doğru inkişaf edəcəyini yalnız təxmin edə biləcəyini vurğulayıb. Çünki hazırkı zamana qədər dəqiq planlar dünya ictimaiyyətinin diqqətinə çatdırılmayıb və bu baxımdan, indidən sonluğu ehtimal etmək həqiqətən də doğru olmazdı.

### Qərblə bağlı: ”Biz Qərbin reaksiyasını o, praktik müstəviyə - bəyanatlardan fəaliyyətə keçəndə təxmin edə bilərik”

Amma Prezident İlham Əliyev müsahibəsi əsnasında onu da vurğulayıb ki, proseslərdə Qərbin reaksiyası praktiki müstəviyə keçməyib və yalnız praktiki müstəviyə keçid olduqda hər hansı real məntiqə söykənmək mümkündür. Yeganə məlum olan isə sözügedən prosesin uzun olması amilinə söykənməsidir. SİTAT: ”Biz Qərbin reaksiyasını o, praktik müstəviyə - bəyanatlardan fəaliyyətə keçəndə təxmin edə bilərik. Hələ ki, bütün bunları proqnozlaşdırmaq çox çətindir, lakin birmənalıdır ki, bu, uzunmüddətli prosesin başlanğıcıdır”.

Biz buradan Prezident İlham Əliyevin Qərbin daim öz siyasətini bəyanatlar üzərindən yürütməsinə işarə etdiyini deyə bilərik. Daha dəqiq desək, Qərb mövcud müharibə başlayana qədər Ukraynaya dəstək bəyanatlarını nümayiş etdirdi, silah-sursatla təmin etdi və hətta indiki məqamda belə, daha dərin sankaiyalar verməkdə tələsmir. Düzdür, ayrı-ayrı şəxslərə, banklara və s. dairələrə qarşı sanksiyalar qəbul olunsa da, əsaslı sanksiyalar verilmir. Hətta verilərsə belə Rusiyanın dayanıqlı ölkə olduğunu nəzərə alsaq bu ölkənin həmin sanksiyalara davam gətirəcəyini ehtimal etmək mümkündür. Ölkə rəhbərimiz sanksiyaların çoxalacağı halda onların səmərəli olduğunu da düşünmür.

### ”Rusiya özünün potensialı, coğrafiyası, imkanları ilə istənilən növ sanksiyaya davamlıdır”

Təbii ki, hərbi əməliyyatlara başlanması ilə bağlı Rusiyanın dövlət başçısı Vladimir Putinin də qərarını şərh edərkən, Prezident İlham Əliyev kifayət qədər səlis və dəqiq analitik düşüncələrini paylaşıb. SİTAT: ”Birmənalıdır ki, Rusiya Federasiyasının Prezidenti bu qərarı qəbul edəndə, yəqin düşünürəm ki, o da bu prosesin uzun olduğunu nəzərə alıb. Mən hesab edirəm ki, Rusiya özünün potensialı, coğrafiyası, imkanları ilə istənilən növ sanksiyaya davamlıdır. Bu, mənim şəxsi fikrimdir və bu, Rusiyaya tətbiq edilmiş həmin sanksiyalarla təsdiq edilir. Əslinə baxanda həmin sanksiyalar Rusiya istehsalçılarına idxaldan asılılığı azaltmaqda kömək etdi. Yəni, mən birmənalı əminəm ki, sanksiya yolu səmərəsizdir”.

### ”Lakin bu, həmin sanksiyaları tətbiq edənlərə də birmənalı şəkildə zərər vuracaq”

Daha bir məqam isə budur ki, cənab Prezident İlham Əliyev Rusiyanın dövlət başçısı Vladimir Putinin də qərar qəbul etməmişdən əvvəl məntiqi nəticə çıxardığını istisna etməyib, hətta sanksiyaların rus iqtisadiyyatına hər hansı zərərlər vura bilməsinə rəğmən dədiqləşdirilən hərbi əməliyyat qərarı çox yəqin ki, Kremlin beryin mərkəzləri tərəfindən necə deyələr, min ölçülüb, bir biçilib. Lakin gəlin-görək, sanksiyaları tətbiq edən Qərb ondan nə əldə edəcək? Yaxud, istədiyini əldə edə biləcəkmi?

”Əlbəttə, o, Rusiya iqtisadiyyatına sözsüz ki, zərər vuracaq. Prezident Putin bu qərarı qəbul edəndə, yəqin ki, o, bunun hamısını hesablayıb. Lakin bu, həmin sanksiyaları tətbiq edənlərə də birmənalı şəkildə zərər vuracaq. Çünki ixrac üçün, özü də yüksək texnologiya məhsulları üçün ikinci belə perspektivli bazar tapmaq çətindir. Mənim deyə biləcəyim maksimum bundan ibarətdir”, deyə Dövlət başçımız vurğulayıb.

### ”Biz bunu 30 il eşitdik, 30 il çalışdıq, lakin heç nə alınmadı...”

Ölkə rəhbərimiz sülhə çağırış edib və müsahibəsi zamanı Qarabağ münaqişəsinin həlli ilə bağlı 30 il sülh çağırışları etdiyini də xatırladıb. Ancaq təəssüf ki, bu çağırışlara kimsə məhəl qoymadı və Azərbaycan haqq-ədalət mübarizəsi uğrunda müharibə aparmaqla torpaqlarını işğalçı düşməndən azad etdi. SİTAT: ”Bu mövzunu 30 il ərzində bizə hər zaman çağırış edilən məlum ifadələrlə bitirmək istəyirəm: ”Bütün məsələləri sülh yolu ilə həll etmək lazımdır”. Biz bunu 30 il eşitdik, 30 il çalışdıq, lakin heç nə alınmadı. Buna görə də, əlbəttə, istərdik ki, hər şey sülh yolu ilə həll edilsin, lakin bu, həyatda, təəssüf ki, heç də hər zaman, mümkün olmur”.

Beləliklə, Prezident İlham Əliyev bu müsahibəsində Ukraynada başlayan müharibənin tezliklə başa çatmasına və problemlərin süh yolu ilə həll olunmasına çağırış etdi. O cümlədən, müharibənin ölkələrə, xalqlara ağrı-acıdan, dərd və bəlalardan başqa heç nə vəd etmədiyini də fikirləri ilə izah etdi.

*Rövşən RƏSULOV*

ANALİTİK-AKTUAL

## “Xocalı soyqırımı ən qəddar soyqırım kimi tarixə düşdü"

*“1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda erməni silahlı birləşmələri və Rusiyanın 366-cı motoatıcı alayının zirehli texnikası Xocalı şəhərini işğal edib, insanları kütləvi şəkildə qətlə yetirdilər”. Bunu SİA-ya açıqlamasında AMİP funksioneri Əli Orucov deyib.*

Onun sözlərinə görə, Xocalı soyqırımı ən qəddar, ən dəhşətli bir soyqırım kimi tarixə düşdü: ”Xocalıda əli silahsız dinc insanlara qarşı qətliam törədilmiş, yüzlərlə uşaq, qadın, kişi, qoca, cavan qətlə yetirilmiş, insanlar əsir düşmüş və bu gün də onların bir çoxunun taleyi məlum deyil. Xocalı soyqırımının dünyada tanıdılması və dünya ictimaiyyətinə çatdırılması istənilən səviyyədə deyil. Düzdür ”Xocalıya ədalət” kampaniyası çərçivəsində son dövrlər bu sahədə böyük işlər görülüb. Xüsusilə də Heydər Əliyev Fondu Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması ilə bağlı böyük işlər gördü və bu fəaliyyət nəticəsində bu gün Xocalı soyqırımı tanınmaqdadır. Bildiyim qədər hazırda Xocalı soyqırımını rəsmi olaraq 14-dən çox ölkə tanıyır. Xocalı faciəsinin tanıdılması istiqamətində işlər davam edir. Bir sözlə, Heydər Əliyev Fondu Beynəlxalq müstəvidə Xocalı faciəsinin tanıdılması istiqamətində böyük işlər gördü. Düşünürəm ki, Xocalı faciəsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində hər gün iş aparılamlıdır. Çünki bu təkcə Azərbaycan xalqına, Azərbaycan türklərinə qarşı həyata keçirilən qeyri -insani bir soyqırımı deyil. Bu həm də insanlığa qarşı yönəlmiş bir cinayətdir. Biz tezliklə Xocalıya qayıdacayıq, tezliklə öz torpaqlarımızı tam erməni işğalından azad edəcəyik və tezliklə biz öz ərazilərimiz yaşayacağıq”.




*Gülyana*

## İtaliyanın Baş naziri: “Qazı Rusiyadan yox, Azərbaycandan və Əlcəzairdən alacağıq”

*İtaliyanın Baş naziri Mario Draqi hökumətin təcili iclasını keçirib. SİA-nın verdiyi məlumata görə, Baş nazir Ukrayna ətrafında baş verən hadisələr səbəbindən Rusiyaya qarşı Avropa ölkələrinin və ABŞ-ın tətbiq etdiyi sanksiyalardan danışıb.*



Mario Draqi sanksiyaların təkcə Rusiya iqtisadiyyatına deyil, həmçinin Avropa ölkələrinə də təsir göstərəcəyini xüsusilə vurğulayıb: ”Xüsusilə qaz təchizatında çətinliklərin yaranacağı qaçılmazdır. Bunun üçün alternativ mənbələrə müraciət edəcəyik. Artıq həmin mənbələr bəllidir, bu, Azərbaycan və Əlcəzairdir. Biz fəaliyyətimizi davam etdirəcəyik və çalışacağıq ki, bizim dost ölkələrdən tədarük edəcəyimiz təbii qaz istehsalın davamlılığını təmin etsin”.




# Xocalı soyqırımına cəmiyyətin baxışı

***Azərbaycan xalqının başı çox bəlalar çəkmişdir. Mənfur qonşuları tərəfindən hər zaman müsibətlər yaşamışdır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələri Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərinə hücum etmiş, əliyalın insanlara qarşı soyqırımı törətmişlər. Yüzlərlə günahsız azərbaycanlının qanına girmişlər.***

Qoca, qadın, uşaq demədən amansızca işgəncələr verərək onları qətlə yetirmişlər. Cənab Prezident İlham Əliyev Xocalı soyqırımının 30 illiyi ilə bağlı sərəncam imzalamışdır. Bu sərəncam Xocalı soyqırımını dünyaya tanıtmaq, onu tarixə həkk etmək üçün mühüm əhəmiyyət kəsb edir. Bəs görəsən 30 il əvvəl erməni terrorçularının törətdiyi Xocalı faciəsi haqqında şəhər sakinlərinin təəssüratları nədir? SİA olaraq şəhər sakinləri arasında sorğu keçirdik.




**Şəhər sakini Rəhilə Xəlilova:** "Xocalı faciəsi hər bir azərbaycanlı kimi mənim üçün də ən dəhşətli gündür. Mən bu faciəni heç vaxt unuda bilmərəm. Xocalı faciəsi zamanı mənim qardaşım ağır döyüşlərdə olmuşdur. Günahsız millətimizə qarşı dəhşətli faciə törətmişlər. Biz xalq olaraq bunu unutmamalıyıq. Onlar çox xəyanətkar bir millətdir".




**Şəhər sakini Ülviyyə İmanova:** "Xocalı faciəsində çəkilən kadrlar bütün dünyaya göstərilməlidir. Bu facisə nə dövlətimiz, nə də dünya tərəfindən yaddan çıxarılmamalıdır. Bu barədə bizim bir çox filmlər çəkilib, kitablar yazılıb. Ermənilər hər zaman bizi günahkar qismində təqdim ediblər. Buna görə də, biz bunun həqiqət olmadığını və əsl faktları bütün dünya birliklərinə göstərməliyik. Çünki bu bizim qan yaddaşımızdır, tariximizdir".




**Şəhər sakini Banu Abdiyeva:** "Xocalı faciəsi bizim tariximizdə 20 Yanvar qətliamı kimi qanla yazılan ən böyük fəlakətdir. Heç vaxt bu hadisəni unutmaq olmaz. Bir Azərbaycanlı kimi onlara nifrət edirəm. Hətta deyərdim ki, harda erməni görsəm boğub öldürə bilərəm. Çünki onlar bizim millətimizi çox böyük amansızlıqla qətlə yetiriblər. Onlar cinayətkar, xəyanətkar və qəddar bir millətdir".

**Şəhər sakini Sulduz Rəhimov:** "Xocalı faciəsi elə bir dəhşətli faciə və hadisədir ki, ömür boyu bunu unutmaq olmaz. İndiyənə kimi o vandalların bizim millətimizə etdiklərini unuda bilmirəm və unutmayacağam. Bildiyiniz kimi bəzi fikirlər dolaşır ki, Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlığını qəbul edəcəklər. Mən




deyərdim ki, onlar elə alçaqdırlar ki, bizim torpağımıza yenidən qayıtsalar, illər keçsə belə onlar yenə Xocalı faciəsi kimi terror əməllər törədəcəklər".




**Şəhər sakini Hüsniyyə Rəhimova:** " Mən bu hadisələrlə barışa bilmirəm. Bir şəhərin yox olması, orada qətliam törədilməsi ağlasığmazdır. Bütün dünya bu vəhşiliyi tanımalıdır. Azərbaycan xalqı da bunu unutmamalıdır. Bu bir cəmiyyətin bilə-bilə kökünün yox edilməsi üçün təxribatdır".

**Şəhər sakini Gülnaz Əliyeva:**




"Azərbaycan xalqının başına gələn ən amansız qətliamlardan biridir. Qəddar düşmən uşağa, qocaya baxmadan, aman diləyənə rəhm etmədən hər kəsi qətlə yetirmişlər".




**Şəhər sakini Kamran Haydayev:** "Günahsız körpələri, hamilə qadınları, qoca qadınları, qoca kişiləri vəhşicəsinə qətlə yetirən şəxslərə insan demək olmaz. Onlar qaniçən canidirlər. Xocalı soyqırımı bizim nyaralı yerimizdir. Allah xalqımızı var eləsin. Allah bir də bizim xalqımıza bu cür acılar yaşatmasın".

**Şəhər sakini İlahə Musayeva:** "Xocalı faciə bütün xalqımızın travmasıdır. Biz bu hadisələri bütün dünyaya hər zaman çatdırmalı və aktual saxlamalıyıq. Çünki hamı bilməlidir ki, onlar necə vəhşi, amansız və mundar bir canidirlər. Onlar bizim insanlarımızın başına min bir bəlalar gətiriblər. Təbii ki, bunları Azərbaycan qanı daşıyan hər bir kəs unutmamalı və unutdurmamalıdır".

***Müəllif Abutel İlhamqızı***

# Sosial ədalət və sosial rifah

## Yeni Azərbaycan Partiyasının proqramında sosial hədəflər düzgün müəyyənləşdirilib

***Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu və banisi Ümummilli Lider Heydər Əliyevin şah əsərlərindən biri olan Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranmış, qarşısına tarixi məqsədlər qoymuş və bu vəzifələri dönmədən, ləyaqətlə yerinə yetirən qüdrətli siyasi təşkilat, illərin sınaqlarından həmişə üzüağ çıxmış ümumxalq partiyasıdır. Ümummilli Lider Heydər Əliyevə Azərbaycan xalqının inamı və ölkənin düşdüyü ağır vəziyyətdən xilas yolunun Ulu Öndərin rəhbərliyi altında təşkilatlanmaqda görməsi, müstəqilliyini yenicə əldə etmiş dövlətimizi parçalanmaqdan, məhv olmaqdan qurtarmaq üçün xalqın göstərdiyi səylər YAP-ın yaranmasını zəruri etdi.***

Təsis olunduğu ilk gündən YAP Azərbaycanın ictimai-siyasi mühitinə yeni ab-hava gətirdi, Azərbaycanda sivil siyasi mübarizə mədəniyyətinin başlanğıcını qoyan ilk partiya oldu. YAP müxalifət partiyası kimi yaransa da, heç vaxt dövlətçiliyə qarşı, Azərbaycanın qanunlarına qarşı, milli maraqlara qarşı müxalifətdə dayanmadı. YAP yaranan gündən Azərbaycanın bütövlüyünü, müstəqilliyini, milli maraqlarını önə çıxartdı və bu yolda sivil siyasi yolla mübarizə aparacağını bəyan etdi.

Ümummilli Lider 1993-cü ilin 15 iyununda xalqın tələbi ilə məsuliyyətli bir missiyanı öz üzərinə götürdü, vətəndaş müharibəsinin qarşısını aldı, milli birliyə nail oldu və müasir Azərbaycan dövlətinin təməlini qoydu. 1995-ci ildə parlamentə keçirilən seçkilərdə isə YAP səslərin böyük əksəriyyətini qazanaraq iqtidar partiyasına çevrildi. Həmin dövrdən bu yana keçirilən bütün seçkilərdə (istər bələdiyyə, parlament, istərsə də prezident seçkilərində) YAP qalib gəlmişdir.

Yeni Azərbaycan Partiyasının Sədri, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında dövlətimizin və xalqımızın qarşısında dayanan ən böyük tarixi missiya şərəflə yerinə yetirildi: 44 günlük Vətən müharibəsi nəticəsində Ermənistanın işğalçı ordusu darmadağın edildi, torpaqlarımız işğaldan azad olundu, ərazi bütövlüyümüz təmin edildi. 2020-ci ilin 10 noyabr tarixindən müstəqil, bütöv Azərbaycan dövlətinin tarixində yeni dövr başlandı, yeni daha yüksək hədəflər qarşıya qoyuldu.

YAP Sədri Prezident İlham Əliyevin irəli sürdüyü "Müasir, qüdrətli və zəngin Azərbaycan naminə" çağırışında səslənən bu hədəflər özünün real təsdiqini ölkəmizin hərtərəfli və davamlı inkişafında tapmışdır. Bu hədəflərə nail olmaq üçün siyasi, hüquqi, iqtisadi və sosial islahatların daha da dərinləşməsi, postmüharibə və postpandemiya dövrü üçün regionda və dünyada baş verəcək yeni çağırışlara hazır olmaq zərurəti partiyamızın 5 mart 2021-ci il tarixdə keçirilən VII qurultayında ətraflı müzakirə olunmuşdur.

YAP-ın VII qurultayı Azərbaycanın davamlı inkişafı və müasir dövrün çağırışları kontekstində partiyanın qarşısına yeni vəzifələr qoymuşdur. Cəmiyyətin və dövlətin müxtəlif sahələrini əhatə edən islahatların aparılmasında, yeni siyasi konfiqurasiyanın yaradılmasında və siyasi dialoqun dərinləşməsində yaxından iştirak etmək partiya üzvlərindən yüksək fəallıq tələb edir.

VII qurultayda bir daha aydın oldu ki, YAP Azərbaycanın hərtərəfli inkişafına töhfə verən böyük sosial bazaya, güclü siyasi-intellektual potensiala malikdir. Bu isə partiyanın məqsəd və vəzifələrini gələcəkdə də şərəflə yerinə yetirəcəyini şərtləndirir. Məhz yeni dövrün və yaxın gələcəyin tələblərini nəzərə alaraq qurultayda partiyanın yeni proqramının hazırlanması qərara alındı, işçi qrupu yaradıldı. Geniş təhlil, müzakirə və fikir mübadiləsi əsasında hazırlanan bu siyasi sənəd YAP İdarə Heyətinin 29 dekabr 2021-ci il tarixli qərarı ilə təsdiq edildi.

Yeni Azərbaycan Partiyasının proqramında bütün taleyüklü məsələlər, vəzifələr və hədəflər mükəmməl şəkildə öz əksini tapmışdır. Bu məqsədlərin içərisində sosial ədalət, sosial rifah, insan kapitalının inkişafı, hamı üçün layiqli həyat səviyyəsinin təmin olunması məsələləri partiyanın əsas siyasi prinsipləri kimi təsbit edilmişdir.

YAP-ın sosial siyasət sahəsində məqsədi insana qayğı, onun inkişafı, maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılmasından, sosial ədalət prinsipinin daim qorunması və müxtəlif sosial qruplar arasında kəskin təbəqələşmənin yumşaldılmasından ibarətdir.

Yeni proqramda göstərildiyi kimi, YAP sosial ədalət və insan amili prinsipindən çıxış edərək aşağıdakıları öz fəaliyyətinin əsas istiqamətləri hesab edir:

* dövlətin sosialyönümlü siyasətinin sosial ədalət prinsipinə söykənməsi;

* hər kəsin məşğulluğunun təmin edilməsi, ərzağa əlçatanlığa və sosial müdafiə imkanına malik olması;

* vətəndaşların sosial hüquqlarının təmin olunması üçün əlverişli şəraitin yaradılması;

* kəmiyyət, keyfiyyət, məhsuldarlıq və iqtisadi imkanlar nəzərə alınmaqla əməyə görə mükafatlandırma;

* insan kapitalının inkişafı və yeni ideyaların təşviqi, "qara qızıl"ın insan kapitalına çevrilməsi prinsipinin milli təhsil quruculuğu və insan resurslarının inkişafının əsas prioritetlərindən biri kimi müəyyən edilməsi;

* uşaqlara, ahıllara, əlilliyi olan şəxslərə, aztəminatlı ailələrə, şəhidlərin ailə üzvlərinə və müharibə veteranlarına diqqət və qayğı göstərilməsi.

Sosial dövlətin əsas əlamətləri aşağıdakılardır:

- sosial sahədə mükəmməl qanunvericiliyin olması;
- dövlət tərəfindən müxtəlif sosialyönümlü proqramların hazırlanması və həyata keçirilməsi;
- vətəndaş cəmiyyətinin qurulması;
- dövlətin vətəndaşlar qarşısında sosial məsuliyyəti;
- dövlət tərəfindən hər bir vətəndaşın sosial müdafiəsinin təmin olunması və layiqli həyat şəraitinin yaradılması;
- layiqli sosial, iqtisadi, mədəni həyat təminatları əldə etmək üçün hər kəsə bərabər imkanlar yaradılması;
- ölkənin iqtisadi inkişafının yüksək səviyyədə olması.

Tam məsuliyyətlə söyləyə bilərik ki, hazırda Azərbaycan dövlətinin siyasi kursu sosial dövlətə aid edilən bu klassik tələblərə tamamilə cavab verir.

Azərbaycanın 2000-ci illərin əvvəllərindən başlayan sürətli, dinamik, harmonik inkişafı ölkəmizi bir sıra sosial-iqtisadi göstəricilərə görə MDB və Şərqi Avropa dövlətləri sırasında ön plana çıxarmışdır. Azərbaycanın milli iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi, xalqın sosial rifah halının artan xətt üzrə davamlı yüksəldilməsi məqsədilə cənab Prezidentin 6.12.2016-cı il tarixli fərmanı ilə "Azərbaycan Respublikasının Milli İqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" təsdiq edilmişdir.

Ölkəmizin sosial dövlət olmasını təsdiq edən mühüm indikatorlardan biri də BMT-nin İnsan İnkişafı İndeksi göstəricisidir. Bu göstəriciyə görə Azərbaycan Respublikasında insan inkişafı indeksi 0,751 bal təşkil edir ki, bu da yüksək göstərici sayılır.

Azərbaycan təhsil, səhiyyə, orta ömür uzunluğu, sosial təminat səviyyəsinə görə 188 ölkə arasında 78-ci yerdə qərarlaşaraq MDB ölkələri arasında lider yerlərdən birini tutur.

Azərbaycan Dünya Bankının adambaşına düşən ümumi milli gəlir təsnifatına görə "yuxarı orta gəlirli" ölkələr qrupuna daxil olmuş, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının insan inkişafı ilə bağlı 2010-cu il üzrə hesabatına əsasən "yüksək insan inkişafı" ölkələri qrupuna keçmişdir.

Bir çox sosial inkişaf indikatoruna görə Azərbaycan son 10 ildə böyük irəliləyişlər əldə etmişdir. BMT üzvü olan dövlətlər arasında 2010-cu illə müqayisədə 2020-ci ildə ölkəmiz rifah indeksi üzrə 17 pillə irəliləyərək 78-ci, sağlamlıq indeksinə görə 57-ci, təhsilalma imkanlarına görə 73-cü, məişət şəraitinə görə 68-ci, xoşbəxtlik indeksinə görə 90-cı yerdə qərarlaşmışdı.

Sosial dövlətin qurulmasının əsas şərtlərindən biri həmin dövlətdə sosial ədalətin səviyyəsi sayılır. Heç də təsadüfi deyildir ki, Yeni Azərbaycan Partiyasının proqramında əsas prinsiplərdən biri kimi sosial ədalət prinsipi götürülür.

Sosial dövlət dedikdə ilk növbədə sosial müdafiəyə ehtiyacı olan şəxslərin (şəhid ailələri, qaçqın və məcburi köçkünlər, əlillər, qocalar, işsizlər, uşaqlar və s.) qayğısı göz önünə gəlir. Əməyin mühafizəsini və insanların sağlamlığını təmin etmək, ailəyə, ana və uşaqlara dəstək vermək, gəlirlərin yenidən bölüşdürülməsi yolu ilə sosial qeyri-bərabərliyi yumşaltmaq, xeyriyyəçilik fəaliyyəti üçün geniş imkanlar yaratmaq, təhsil və mədəniyyət proqramlarına maliyyə yardımı göstərmək və işsizliklə mübarizəni də bu sıraya əlavə etmək lazımdır.

Böyük məmnunluq hissi ilə söyləmək olar ki, bu vəzifələrin hamısı dövlətimizin daxili siyasətində prioritet istiqamət kimi nəzərdə tutulmuşdur və həyata keçirilməkdədir.

Cənab Prezident İlham Əliyevin 2018-ci ildə başladığı iqtisadi sahədə islahatların davamı olaraq 2019-cu ildə dərin sosial, idarəetmə və struktur islahatları aparılmışdır. Cənab Prezidentin 30-a yaxın fərman və sərəncamını əhatə edən 2 sosial islahatlar zərfi 4,2 milyon vətəndaşımızın sosial rifah halının ciddi şəkildə yaxşılaşmasına maddi təminat yaratmışdır.

***Azərbaycanın sosial dövlət quruculuğu strategiyasının ana xətti olaraq əhalinin sosial-mədəni ehtiyaclarının yüksək səviyyədə qarşılanması siyasəti nəzərdə tutulur.***

Koronavirus pandemiyası və dünya maliyyə-iqtisadi böhranı nəticəsində baş verən bahalaşmanın mənfi təsirlərindən vətəndaşlarımızın sosial rifahının qorunması üçün cənab Prezidentin fərman və sərəncamları əsasında bu ilin əvvəlində 2 100 000 nəfərin sosial rifahını artıran irihəcmli yeni sosial müdafiə zərfi qəbul edildi: minimum əməkhaqqı və pensiyaların minimum məbləği, müavinət və təqaüdlər artırıldı.

Ötən il pensiya təminatı sahəsində aparılan islahatlar nəticəsində ölkə üzrə əmək pensiyalarının minimum məbləği 200 manatdan 240 manata, orta aylıq məbləği 256 manatdan 331 manata yüksəlmiş, yaşa görə orta aylıq pensiya isə 358 manata çatmışdır. Sosial müdafiə tədbirlərinin və sosial rifahın artım dinamikasına nəzər saldıqda görürük ki, 2003-cü ildən bu yana ölkədə minimum əməkhaqqı 9,4 dəfə, orta aylıq pensiya 17,7 dəfə artmış, 2022-ci ildə isə minimum əməkhaqqı 300 manat olmaqla yaşayış minimumunu (210 manat) 70 faiz üstələmişdir.

Azərbaycanın sosial dövlət quruculuğu modeli dünyanın bir çox siyasi institutlarında maraqla öyrənilməkdədir. Azərbaycanın sosial dövlət quruculuğu modelinin ən əlamətdar xüsusiyyətləri kimi aşağıdakıları göstərmək olar:

**1.** Sürətli sosial-iqtisadi inkişaf tempi. Azərbaycan 2003-2020-ci illərdə sürətli, harmonik inkişaf dövrü keçmişdir. Bu illər ərzində Azərbaycanın dövlət büdcəsi 30 milyard manata yüksəlmiş, valyuta ehtiyatları 54 milyard dollara çatmışdır. Son illərdə koronavirus pandemiyası, ümumdünya maliyyə-iqtisadi böhranının mənfi təsirləri və neftin qiymətinin kəskin aşağı düşməsi inkişaf tempini bir qədər yavaşıtsa da, heç bir geriləmə yoxdur və dövlətimizin sosial müdafiə strategiyası dəyişməz olaraq qalır. 2022-ci ilin dövlət büdcəsinin 46,6 faizindən çoxunun sosial xərclərə ayrılması da dediyimizi sübut edir.

**2.** Regionların harmonik inkişafı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çox haqlı olaraq qeyd edir ki, ölkəmizin inkişafı bütün sahələrdə və bütün regionlarda davam etməli, kompleks xarakterdə aparılmalıdır. Bu məqsədlə 2004-cü ildən başlayaraq hər biri 5 il müddətinə fəaliyyət göstərən regionların sosial-iqtisadi inkişaf proqramları qəbul edilmiş, 3 belə layihə uğurla həyata keçirilmiş, 4-cü layihə isə 2019-2023-cü illəri əhatə edir. Aparılan məqsədyönlü sosial siyasətin nəticəsidir ki, bu gün respublikamızın paytaxtında mövcud olan sosial-mədəni infrastruktur eyni səviyyədə bölgələrdə də yaradılmışdır. Bu inkişaf regionlarda yaşayan əhalinin mədəni, sosial həyat şəraitinin yüksəlməsində özünü göstərməkdədir.

**3.** Qeyri-neft sektorunun inkişafı: Azərbaycanın beynəlxalq neft müqavilələri işə düşəndə və gəlir gətirməyə başlayanda müxalifətyönlü siyasətçilər və bəzi ekspertlər respublikamızda iqtisadiyyatın neftdən asılı olacağını, son nəticədə ”holland sindromu”nun yaranacağını deyir, neft tükənməyə başlayanda isə ölkə iqtisadiyyatının fəlakətli dərəcədə çökəcəyi barədə ”proqnozlar” söyləyirdilər. Ötən 18 illik inkişaf yolu göstərdi ki, Ümummilli Lider Heydər Əliyevin böyük uzaqgörənliklə müəyyən etdiyi Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyası balanslaşdırılmış iqtisadi siyasətə üstünlük verməklə, hərtərəfli iqtisadi artımı daim diqqət mərkəzində saxlayır.

Prezident İlham Əliyevin yeni dövrün çağırışlarına cavab verən iqtisadi siyasət taktikası ölkə iqtisadiyyatının çoxşaxəli prinsiplər üzrə inkişafını ön plana çəkir. Neft sektorundan əldə olunan gəlirlərin bir hissəsinin qeyri-neft sektoruna investisiya kimi qoyulması nəticəsində hazırda ölkəmizdə ÜDM-in yarıdan çoxu bu sektorun payına düşür, qeyri-neft sektorunun inkişaf tempi isə neft sektorunu daha çox üstələməkdədir. Kənd təsərrüfatı, emal sənayesi, turizm, nəqliyyat, İKT sektoru getdikcə daha çox rentabelli sahələrə çevrilməkdədir. ”Made in Azerbaijan” brendi adı altında onlarca məhsulumuz xarici bazarlarda yer tutmaqdadır.

4. Sosial infrastruktur layihələrinə önəm verilməsi. Azərbaycanın sosial dövlət quruculuğu strategiyasının ana xətti olaraq əhalinin sosial-mədəni ehtiyaclarının yüksək səviyyədə qarşılanması siyasəti nəzərdə tutulur. Bu xəttin reallaşması nəticəsində son 18 ildə ölkəmizdə 3000-dən çox təhsil müəssisəsi, 700-dən artıq tibb müəssisəsi ya yenidən tikilmiş, yaxud da əsaslı təmir olunaraq müasir avadanlıq və cihazlarla təchiz edilərək vətəndaşların istifadəsinə verilmişdir. Bu illər ərzində ölkə ərazisində 16 min kilometr müasir yol çəkilmiş, körpülər salınmış, yüzlərlə mədəniyyət evləri, idman olimpiya kompleksləri tikilmiş, parklar açılmışdır. İnsanların sağlam həyat şəraitini təmin etmək üçün min kilometrlərlə su və kanalizasiya xətləri çəkilmiş, sutəmizləyici qurğular quraşdırılmışdır.

5. Neft kapitalının insan kapitalına çevrilməsi. Sosial dövlətdə daxili siyasətin mərkəzində insan amili dayanır. İnsanın sağlam, xoşbəxt və sosial rifah halında həyat sürməsi dayanır. Uşaqlara qayğı, gəncliyə dəstək, Azərbaycanın rəqabətqabiliyyətli, müasir düşüncə, mədəniyyət və elm çağırışlarına layiqincə cavab verə biləcək kadr potensialının hazırlanması dövlətimizin sosialyönümlü siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan hökumətinin təhsil sahəsində 30-a, səhiyyə sahəsində 20-yə yaxın dövlət proqramı qəbul etməsi və həyata keçirməsi, uşaq hüquqları ilə bağlı 40-dan çox qanunun fəaliyyət göstərməsi, istedadlı Azərbaycan gənclərinin dünyanın aparıcı ölkələrinin qabaqcıl universitetlərində təhsil almalarına təminat verən dövlət proqramının qəbul edilməsi və nəhayət, ASAN xidmətin və DOST mərkəzlərinin yaradılması insan kapitalının güclənməsinə Azərbaycan dövlətinin qayğısının bariz nümunələridir.

YAP hesab edir ki, Azərbaycan iqtisadiyyatının uzunmüddətli inkişafı müasir tələblərə cavab verən elm və təhsilə əsaslanmalıdır. Buna görə də:

* insan kapitalının milli sərvətdə iştirak payının artırılması;
* peşəkarlıq, sosial vərdişlər və rəqəmsal bacarıqların qarşılıqlı bağlılığına söykənən ”ömürboyu təhsil”ə xüsusi əhəmiyyət verilməsi;
* erkən və məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsi;
* ümumi təhsilin məzmunca gücləndirilməsi üçün təhsil sistemində gedən modernləşmənin davam etdirilməsi;
* inteqrativ tədris təcrübəsinin inkişafı və onun əsasında ölkənin beynəlxalq qiymətləndirmələrdə qabaqcıl yer tutmasının təmin olunması;
* rəqəmsal bacarıq və vərdişlərin formalaşdırılması;
* yüksək keyfiyyətli təhsil almaq, elmi biliklərə yiyələnmək imkanlarının və inklüziv təhsilin genişləndirilməsi, bu sahədə müasir texnologiyalardan geniş istifadə edilməsi;
* həssas ailələrdən olan təhsilalanlara maddi dəstəyin verilməsi, Təhsil Tələbə Krediti Fondunun imkanlarının genişləndirilməsi;
* kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması;
* gənclərdə dövlət idarəçiliyi sahəsində əhəmiyyətli olan bilik, bacarıq və təcrübənin formalaşdırılması, ”Yüksəliş” proqramının imkanlarının artırılması;
* peşə hazırlığı sisteminin inkişafı çərçivəsində beynəlxalq tələblərə uyğun mütəxəssislərin hazırlanması;
* distant təhsil də daxil olmaqla, təhsilin müasir formalarının tətbiqinin dəstəklənməsi;
* təhsilin idarəedilməsinin təkmilləşdirilməsi;
* ali təhsil müəssisələrinin muxtariyyətinin artırılması;
* smart universitet modelinin tətbiqi, universitet kampuslarının yaradılması;
* ali təhsil müəssisələrinin beynəlxalq tələblərə uyğun akkreditasiya sisteminin formalaşdırılması;
* xaricdə təhsil sisteminin imkanlarından milli kadr hazırlığında istifadənin genişləndirilməsi;
* təhsil-elm-biznes vəhdətinin təmin edilməsinin dəstəklənməsi;
* ali təhsil müəssisələrinin fəaliyyətində beynəlxalq rəqabətə davamlılığın təmin olunması partiyanın hədəflərindəndir.

Azərbaycan dövləti sosial müdafiəyə daha çox ehtiyacı olan təbəqənin, o cümlədən, qaçqın və məcburi köçkünlərin məşğulluğunun təmin edilməsinə xüsusi həssaslıqla yanaşır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 2017-ci il martın 9-da Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuş müşavirədə söyləmişdir: ”Son 13 ildə 400 min qaçqın və məcburi köçkün işlə təmin olunmuşdur. Ölkə ərazisindəki bütün çadır düşərgələri artıq ləğv olunub və orada məskunlaşan məcburi köçkün ailələri yeni salınmış qəsəbələrə köçürülmüşdür. Dövlət proqramında bu istiqamətdə həyata keçirilən tədbirlərin icrası üçün bütövlükdə 6 milyard manatdan çox vəsait ayrılmışdır. Dünyanın bir sıra aparıcı beynəlxalq təşkilatları, o cümlədən BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı Azərbaycanda qaçqınlara və məcburi köçkünlərə göstərilən qayğını çox yüksək qiymətləndirir və bir çox halda ölkəmizi bu sahədə nümunəvi ölkə adlandırırlar”.

Görülən işlərlə yanaşı, qarşıda daha böyük çağırışlar və vəzifələr dayanır. Dünyanın transformasiya dövründə yaşayırıq, artıq IV Sənaye İnqilabı qapımızı döyməkdədir. Yeni çağırışlara hazır olan gənc nəslin yetişdirilməsi də YAP-ın qarşıya qoyduğu vəzifələrdən biridir. Dünya əmək birjasında bir çox ənənəvi peşələr yavaş-yavaş sıradan çıxır, hər gün yeni peşələr yaranır, yeni iş istiqamətləri ortaya çıxır. Bu peşələrin bəziləri (vebmaster, distribüter, dizayner, İT-mütəxəssis, logistik, imicmeyker və s.) artıq bizim leksikonumuza və iş həyatımıza daxil olsa da, bir çox peşənin (cobber, valveoloq, layf-kouç, kouçer, kopirayter, mediabayer, treyder və s.) adı belə cəmiyyətimizə tanış deyildir.

Bu il fevral ayının 2-də keçirilən Gənclər gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda qarşıda duran yeni sosial-iqtisadi çağırışlara hazır olmamızın vacibliyinə toxunan YAP Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ”Biz onu da bilməliyik ki, ənənəvi peşələrin bir neçəsi, bəlkə də bir çoxu bir neçə ildən sonra olmayacaq, yəni bu peşələrə ehtiyac qalmayacaq. Ancaq Azərbaycan bir çox ölkələrdən fərqli olaraq, əhalisi artan ölkədir. Avropa məkanında ölkələrdə ya əhali sabitdir, ya da ki, azalır, bizdə isə artır. Müstəqillik dövründə 7 milyondan 10 milyonadək artıbdır. Bütün bunlar yeni iş yerləri deməkdir. Amma biz görürük ki, IV Sənaye İnqilabı iş yerlərinin ləğvinə gətirəcəksə - bu, artıq danılmaz faktdır - ona görə IV Sənaye İnqilabı nəticəsində yarana biləcək yeni peşələrə hazır olmalıyıq. Hazır olmasaq, o işlər itiriləcək, işsizlərin sayı artacaq, biz yeni işlərə hazır olmayacağıq. Bu, təkcə işsizliyin normal səviyyədə saxlanması deyil, bu, inkişaf deməkdir”.

Sosial dövlətin əsas xüsusiyyətlərindən biri də layiqli həyat səviyyəsinin təmin olunması məsələsidir.

Partiyamızın proqramında qeyd edildiyi kimi, davamlı inkişaf inklüziv cəmiyyətin formalaşmasına təkan verməli və hər bir vətəndaş bunu öz həyatında hiss etməlidir. Layiqli həyat səviyyəsinin təmin edilməsi üçün:

* əməkhaqqı artımının əmək məhsuldarlığının artımı ilə uzlaşdırılması;
* bütün əhali qrupları üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olunması;
* məşğulluq sahəsində özəl sektorun payının artması üçün təsirli tədbirlərin görülməsi;
* əhalinin aşağıgəlirli təbəqəsinin sosial-iqtisadi rifahının yüksəldilməsi;
* gəlirlərin və qeyri-formal məşğulluğun leqallaşdırılması istiqamətində işlərin görülməsi partiyanın əsas məqsədlərindəndir.

YAP daim inkişafda olan, özünü təkmilləşdirən, dünyada gedən proseslərə adekvat reaksiya verməyi bacaran və yeniliklərə açıq bir partiyadır. Partiyamızın proqramında qeyd edildiyi kimi, yaradıcı təfəkkür, kreativ düşüncə, təşəbbüskarlıq və innovativ inkişaf müasir dünyada peşəkar fəaliyyətin meyarıdır. Səmərəlilik, rasionallıq, çeviklik, müasirlik və aktuallıqla səciyyələnən kreativ yanaşma siyasi münasibətlərə də sirayət edir.

Rəqəmsal texnologiyaların üstünlüyü şəraitində siyasi münasibətlərdə kreativ yanaşma ön plana keçir. Müasir dövrdə siyasi mübarizə və rəqabətin virtual məkanda aparılması meyli getdikcə güclənir. YAP-ın fəaliyyətinin əsaslarından biri də innovativ inkişaf və kreativliyin təşviqi və geniş tətbiqinin dəstəklənməsidir.

Layiqli həyat səviyyəsinin təmin olunması yaşayış minimumu, minimal əməkhaqqı, orta aylıq əməkhaqqı və orta aylıq pensiyanın artım dinamikası ilə şərtlənir. Azərbaycanda yaşayış minimumu 2003-cü ildəki 35 manatdan 2022-ci ildə 210 manata çatdırılmış, başqa sözlə, 6 dəfə artmışdır. Minimum əməkhaqqı 2002-ci ildəki 5,5 manatdan 2022-ci ildə 300 manata yüksəlmiş, yaxud 54,5 dəfə artmışdır. Orta aylıq əməkhaqqı isə 2003-cü ildəki 80 manata rəğmən bu ilin sonuna 808 manat təşkil edəcəkdir və bu, həyat səviyyəsinin artım tempini xarakterizə edən ən yaxşı göstəricilərdən biridir. Pensiya sahəsində aparılan islahatlar nəticəsində pensiyanın minimum məbləği (240 manat) yaşayış minimumu (210 manat) səviyyəsini üstələmişdir, başqa sözlə, bütün pensiyaçılar yoxsulluq həddindən çıxmışlar.

Sosial dövləti xarakterizə edən parametrlərdən biri də sosial müdafiə tədbirlərinin ardıcıllığı və təminatlılıq səviyyəsidir. Azərbaycan dövləti tərəfindən 38 istiqamətdə sosial müdafiə tədbirləri həyata keçirilir, əməkhaqqı, pensiya, müavinət (yaşa, işsizliyə, ailə başçısını itirməyə, əlilliyə, şəhid ailəsinə, veteranlara, xəstəliyə, hamiləliyə, doğuşa, çoxuşaqlılığa və s. görə), təqaüd (tələbələrə, Qarabağ müharibəsi və 20 Yanvar əlillərinə, şəhid ailələrinə, yaradıcı şəxslərə və s.) verilir, icbari təhsil və tibbi xidmət dövlət vəsaiti hesabına həyata keçirilir, sığorta xidmətləri genişləndirilir. Sovet əmanət kassalarında qalmış pulların qısa müddətdə və yüksək indeksasiya şərtləri daxilində qaytarılması faktı da Azərbaycanın sosial dövlət xarakterindən irəli gələn bir hadisədir.

***Ardı Səh. 10***

Əvvəli-Səh-9

# Sosial ədalət və sosial rifah

## *Yeni Azərbaycan Partiyasının proqramında sosial hədəflər düzgün müəyyənləşdirilib*

Bütün cəmiyyətin rifah halının yüksəldilməsi vacib məsələlərdəndir. Sosial dövlət dövlətçiliyin inkişafının yeni bir mərhələsi olub, maddi nemətlər bolluğu yaratmaqla hər bir vətəndaşın yüksək rifah halını təmin edir. Ümumi daxili məhsulun həcminin artması, dövlət büdcəsinin çoxalması, investisiya qoyuluşu imkanlarının genişlənməsi cəmiyyətin bütün təbəqələrindən olan insanların sosial rifah halının yüksəlməsinə imkan yaradır.

Sosial dövlət vətəndaş-cəmiyyət-dövlət münasibətlərinin yeni bir forması, daha yüksək səviyyəsi olub, hər bir vətəndaşın, onun ailə üzvlərinin həyatı və rifahı naminə layihələrə üstünlük verir, insanların öz potensial imkanlarını reallaşdırmaq üçün hüquqi və iqtisadi müstəvidə qanuni şərait yaradır.

Doğrudan da, Azərbaycan bir sosial dövlət kimi öz vətəndaşlarının sosial, iqtisadi, hüquqi və mənəvi azadlıqlarını təmin edir, cəmiyyət üzvləri arasında sosial bərabərsizliyi minimuma endirməyə çalışır, sosial ədalətə, sosial sülhə və sosial əməkdaşlığa söykənən yeni münasibətlərin yaranmasına səy göstərir və buna nail olur.

İnsan həyatının keyfiyyətli və faydalı olması üçün vacib şərtlərdən biri, bəlkə də birincisi sağlamlıqdır. Heç təsadüfi deyildir ki, bütün dünyada sağlam yaşamaq hüququ insanın ən fundamental hüquqlarından biri kimi tanınır. Azərbaycan vətəndaşının sağlam və xoşbəxt yaşamasının təmin olunması, tibbi xidmətin keyfiyyəti və bu xidmətlərə pasiyentlərin əlçatanlığı Prezident İlham Əliyevin daim diqqətdə saxladığı məsələlərdən biridir.



Tibbi xidmətlərə əlçatanlığın təmin olunması, tibbi xidmətlərin vaxtında və keyfiyyətli göstərilməsi üçün səhiyyə idarəçiliyinin ən optimal forması sayılan icbari tibbi sığorta sisteminə keçid Prezident İlham Əliyevin sosial sahədə apardığı ən fundamental islahatlardan biridir. İcbari tibbi sığorta səhiyyə xidmətlərinin keyfiyyətini artırmaq, sağlam rəqabət mühiti yaratmaqla yanaşı, maliyyələşdirmə xərclərini də dövlət, işəgötürən və işləyən arasında paylaşmaqla daha mütənasib ödəmə sistemi təklif edir.

İcbari tibbi sığorta 3 il ərzində pilot şəklində Mingəçevir, Yevlax və Ağdaş şəhərlərində uğurla sınaqdan çıxandan sonra 2020-ci ildə ölkəmizin şimal bölgəsini əhatə edən 20 rayonda icbari fəaliyyətə başladı. Hazırda isə koronavirus pandemiyasının törətdiyi çətinliklərə baxmayaraq Azərbaycanın bütün ərazisində icbari tibbi sığorta böyük uğurla vətəndaşlarımızın xidmətindədir.

Əhalinin sağlamlığının qorunması və səhiyyə sahəsində YAP-ın hədəfləri aşağıdakılardır:

* səhiyyəyə ayrılan vəsaitin ümumi daxili məhsulda payının artırılması və onun səmərəli istifadəsini təmin edən mexanizmlərin təkmilləşdirilməsi;

* səhiyyənin maddi-texniki bazasının gücləndirilməsi üçün tibb müəssisələrinin tikintisi, əsaslı təmiri və yenidən qurulması, onların müasir tibbi avadanlıqla təchiz edilməsi;

* səhiyyənin idarə olunmasında həddən artıq mərkəzləşmədən imtina edilməsi;

icbari tibbi sığorta sisteminin təkmilləşdirilməsi;

* əhalinin bütün təbəqələrinin tibbi xidmətlərə və dərman vasitələrinə əlçatanlığının təmin edilməsi;

* yoluxucu xəstəliklərin profilaktikası işinin gücləndirilməsi;

* ana və uşaqların sağlamlığının qorunmasına dair hüquqi-təşkilati mexanizmlərin təkmilləşdirilməsi;

* səhiyyədə müasir innovasiyaların tətbiqinin genişləndirilməsi;

* keyfiyyətli səhiyyə və sağlam həyat tərzi hesabına əhalinin orta ömür müddətinin artmasına nail olunması;

* ölkənin əsas dərman vasitələri və tibbi ləvazimatlarla davamlı təminatı məqsədilə daxili istehsalın artırılması;

* əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün tibb müəssisələrinin səviyyələr üzrə bölgüsünün aparılması, tibbi xidmətlər üzrə standartların hazırlanması və bu sahədə keyfiyyətə nəzarət sisteminin qurulması;

* işğaldan azad edilmiş ərazilərdəki tibbi xidmətin ölkənin səhiyyə sisteminə tam inteqrasiya edilməsi.

Partiyamızın 5 mart 2021-ci il tarixdə keçirilən VII qurultayı siyasi, iqtisadi, sosial sahələrdə qarşıya qoyulan yeni hədəfləri bəyan etməklə yanaşı, bu hədəflərə çatmaq üçün ideoloji platformanı da müəyyən etmişdir. Bu platformanın əsasında milli birlik, bütün siyasi qüvvələrin ölkənin ictimai həyatında fəal mövqe tutması, vətəndaş həmrəyliyinə töhfə verməsi dayanır. Partiyamızın Sədri, Azərbaycan Raspublikasının Prezidenti cənab İlham Əliyev qurultaydakı nitqində bu məsələləri cəmiyyətin diqqətinə çatdıraraq demişdir: "Mən bu gün qarşıda duran bəzi vəzifələr barədə öz fikirlərimi həm partiya üzvləri ilə, həm Azərbaycan xalqı ilə bölüşməklə, əlbəttə ki, bütün siyasi qüvvələri, bütün ictimaiyyəti geniş diskussiyaya çağırıram. Buna ehtiyac var. Çünki bir daha demək istəyirəm ki, biz yeni dövrə qədəm qoyduq. Bölgədə və ölkəmizdə tamamilə yeni geosiyasi vəziyyətdir. Ona görə biz bütün addımlarımızı düzgün atmalıyıq ki, daim qələbə qazanaq, Azərbaycan bayrağı daim yüksəklərdə olsun".

44 günlük Vətən müharibəsi torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyünün təmin olunması ilə bərabər, həm də bölgədə yeni reallıqlar yaratmışdır. Davamlı və möhkəm sülhün əldə olunması, bölgədə əməkdaşlığın və tərəqqinin bərqərar olunması, Zəngəzur dəhlizinin və digər kommunikasiya xətlərinin açılması ilə əlaqədar yaranan yeni iqtisadi şərait regionun dünya iqtisadiyyatının maraq dairəsinə düşməsini şərtləndirir. Bu reallığı biz yaratmışıq və biz idarə edirik.

Bölgənin ən mütəşəkkil və qüdrətli siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının böyük qələbədən sonra keçirilən VII qurultayında regionda yaranan yeni reallıqlar müzakirə olunmuş və qarşıda duran vəzifələr partiyanın proqramında öz əksini tapmışdır. İşğaldan azad edilmiş ərazilərimizin minalardan təmizlənməsi, təhlükəsiz vəziyyətə gətirilməsi, orada iqtisadi və sosial əhəmiyyətli infrastrukturun yaradılması, məcburi köçkün soydaşlarımızın ata-baba yurdlarına qayıtması üçün lazımi şəraitin yaradılması partiyanın proqramında yaxın dövrün əsas vəzifələri kimi qarşıya qoyulmuşdur.

Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın həyatında mühüm tarixi hadisədir. Ermənistanın hərbi təcavüzü nəticəsində öz ata-baba yurdlarından köçkün düşən insanların doğma torpaqlarına qayıdışının təmin edilməsi sahəsində YAP-ın hədəfləri partiyanın proqramının 4-cü fəslində öz əksini tapmışdır və bu hədəflər Qarabağda və Zəngəzurda layiqli yaşayışın bərpası üçün işğaldan azad olunmuş ərazilərdə geniş quruculuq işlərinin aparılması, bu ərazilərin ölkənin ən abad guşələrindən birinə çevrilməsi, dayanıqlı məskunlaşmanın təmin edilməsi, regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması, regionun sürətli iqtisadi inkişafının təmin olunması üçün stimullaşdırıcı tədbirlərin görülməsi, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının hazırlanması və həyata keçirilməsi kimi mühüm taleyüklü və tarixi əhəmiyyətli məsələləri əhatə edir.

Yeni Azərbaycan Partiyasının VII qurultayından bir il keçmişdir. Bir il ölkənin və cəmiyyətin həyatında çox kiçik bir zamandır, ancaq bu qısa zaman ərzində partiyamızın və dövlətimizin rəhbəri, xalqımızın lideri cənab İlham Əliyevin rəhbərliyi altında olduqca böyük nailiyyətlərə imza atmışıq: Şuşa Bəyannaməsi imzalanmış və qüvvəyə minmişdir, Füzuli aeroportu tikilmiş və istifadəyə verilmişdir. Ağdam, Füzuli şəhərlərinin baş planları təsdiq olunmuşdur və digər rayonlarımızda da quruculuq-abadlıq layihələri həyata keçirilməkdədir, Şuşaya Zəfər yolu çəkilmişdir, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının elektrik enerjisi təminatı həyata keçirilmişdir, Murov dağının üzərindən Kəlbəcərə müasir yol tikintisi uğurla davam edir, Zəngilan və Laçın aeroportları tikilir, Zəngilanın Ağalı kəndində "ağıllı kənd" pilot layihəsi tamamlanmışdır və qısa müddətdə məcburi köçkün soydaşlarımızın 30 illik həsrətinə son qoyulacaqdır.

Biz bu işləri birlikdə etdik, cənab Ali Baş Komandanın rəhbərliyi altında lider-xalq-ordu birliyi sayəsində tarixi uğurlara imza atdıq. Qarşıda bizi daha böyük vəzifələr və nailiyyətlər gözləyir. Bu vəzifələrə çatmaq üçün bütün Azərbaycan vətəndaşlarının arzularının və maraqlarının ifadəçisi olan Yeni Azərbaycan Partiyası uzun illər dövlətimizin qüdrətlənməsində və xalqımızın rifahının güclənməsində təşəbbüskar, birləşdirici, flaqman vəzifəsini uğurla həyata keçirəcəkdir. Xalqımızın lideri cənab İlham Əliyevin irəli sürdüyü və partiyamızın yeni proqramının devizi kimi qəbul etdiyimiz "Biz birlikdə güclüyük!" şüarı bizi daha böyük qələbələrə aparacaqdır.

**_Musa Quliyev,_**
*Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri*

# Xocalı soyqırımı Azərbaycan tarixinin ən dəhşətli və faciəli səhifələrindən biridir



*YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Elman Məmmədovun yap.org.az-a müsahibəsi*

**- Elman müəllim, XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımının 30 illiyini qeyd edirik. Dövlət başçısı İlham Əliyevin bununla bağlı imzaladığı Sərəncam faciənin törədilmə səbəblərini açıqlamaqla yanaşı, bir sıra mühüm çağırışları özündə ehtiva edir. Bununla bağlı fikirlərinizi bilmək istərdik...**

- Dövlət başçısı İlham Əliyevin Xocalı soyqırımının 30 illiyi ilə bağlı Sərəncamı kifayət qədər əhatəli və genişdir. Sənəddə faciə ilə bağlı nələr olub, nələr edilməlidir, ermənilər hansı vəhşilikləri törədiblər, bütün bunlar öz əksini tapıb. Sərəncamda verilən tapşırığa əsasən Prezident Administrasiyası Xocalı soyqırımının 30 illiyinin qeyd olunması ilə bağlı müvafiq Tədbirlər Planı hazırlayıb. Tədbirlər Planında keçiriləcək tədbirlər qeyd olunub.

Ötən 30 ildə respublikanın ictimai-siyasi həyatında bu məsələ ilə bağlı hansı fikirlər olub, hansı dəyişikliklər var, bunlara nəzər salaq. Soyqırımının birinci ildönümü 1993-cü ilə təsadüf edirdi. Bu gün, 2022-ci ildə 30-cu ildönümünü qeyd edirik. O dövrdə Azərbaycan məğlub durumda idi. Ərazilərimiz biri-birinin ardınca işğal olunmaqda davam edirdi. Xocalılılar o dövrdə çox acınacaqlı bir həyat keçirirdilər. Onların yerləşdirilməsi, təminat məsələləri, ölkədə sabitliyin olmaması, müharibə vəziyyəti, iqtisadi çətinliklər, özbaşınalıqlar, bunların hamısı gözümüzün qarşısında yaşanıb. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkənin həyatı tamamilə dəyişdi. 1994-cü il fevral ayının 24-də ilk dəfə olaraq ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə, onun tapşırığı və göstərişi əsasında Xocalı soyqırımına siyasi qiymət verildi. Milli Məclis qərar qəbul etdi. Xocalı faciəsi soyqırımı kimi qəbul olundu. Bundan sonra hər il Xocalı soyqırımı dövlət səviyyəsində qeyd olundu. Ulu Öndər Heydər Əliyevin Xocalıdan olan bir qrup ictimaiyyət nümayəndələri, şəhid ailələri ilə görüşləri keçirildi. Həmçinin Ümummilli Liderin tapşırığı ilə Xocalı soyqırımının başvermə səbəbləri, günahkarlarla bağlı istintaq tədbirləri həyata keçirildi və uzunmüddətli məhkəmə prosesi getdi. Hadisənin başvermə səbəbləri, günahkarlar və onların cəzalandırılması məhkəmə qərarında öz əksini tapdı. Ancaq çox təəssüflər olsun ki, Xocalı soyqırımını törədən, bu soyqırımının törədilməsinə rəhbərlik edən hərbi canilər, qatillər və cinayətkarlar hələ də cəzalarını almayıblar. Koçaryan, Sarkisyan kimilər soyqırımın törədilməsinə başçılıq edənlərdir. Bəli, 44 günlük Vətən müharibəsində Xocalıda və digər yerlərdə baş verən soyqırımlarda şəhid olanların intiqamını aldıq. Ancaq soyqırımın törədilməsinə o dövrdə başçılıq edən, adlarını çəkdiyim cinayətkarlar cəzalarını almayıblar. Onların bir çoxu dünyasını dəyişib. Ümid edirik ki, digərləri həyatda olduqları vaxtda məhkəmə qarşısına çıxacaq, cəzalarını alacaqlar. Biz böyük ümidlə gözləyirik ki, cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu necə ki, ərazilərimizi düşməndən azad edib, ərazi bütövlüyümüz bərpa olunub, yaxın zamanlarda Xocalımız da, Xankəndimiz də, Xocavəndimiz də, keçmiş Ağdərəmiz də separatçılardan, cinayətkarlardan, terrorçulardan təmizlənəcək və biz xocalılılar da doğma yurd-yuvamıza qayıda biləcəyik.

**- Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirən ermənilərin ötən əsrdə törətdikləri qırğınların hər biri xalımızın milli faciəsidir. Onların arasında Xocalı soyqırımı dəhşətləri ilə fərqlənir**

- Məlumat üçün bildirim ki, XX əsrdə Xocalıda ermənilər 3 dəfə etnik təmizləmə aparmaqla soyqırımı törədiblər. Bu, birinci dəfə 1905-1906-cı illər erməni-müsəlman müharibəsi zamanı olub. İkinci dəfə 1918-1920-ci illərdə ermənilərin yenidən Azərbaycan xalqına qarşı törətdiyi vəhşiliklər zamanı olub. Üçüncü dəfə isə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən soyqırımıdır. Bəli, bu, miqyasına və soyqırımına məruz qalmış şəxslərin tərkibinə, kimliyinə görə çox dəhşətli bir qanlı hadisə idi. Soyqırımında qətlə yetirilənlər kimlərdir? Dinc insanlar, körpə uşaqlar, qocalar, xəstələr, qadınlar. Statistikaya baxaq. 613 nəfər öldürülüb. Bunların 106 nəfəri qadınlardır. Qadınlar arasında mənim 62 yaşında anam və yaşı səksəndən yuxarı iki nənəm də var. Bütün analar mənim anamdır. 63 nəfər körpə uşaqlardır. Yəni, bu vəhşiliyi, erməni amansızlığını, qəddarlığını dünyaya yaymaq üçün bu illər ərzində çox işlər görülübdür. 20-dən artıq dövlət Xocalı soyqırımının tanınması ilə bağlı qərar qəbul edib. ABŞ-ın xeyli sayda ştatı bu faciəni soyqırım kimi tanıyıb. Bir çox dövlətlər parlament səviyyəsində faciənin soyqırımı kimi tanınması barədə qərar qəbul edib. Beynəlxalq qurumlar tanıyıb. Biz bu vəhşiliyin, amansızlığın, qəddarlığın şahidləriyik. Bu soyqırımı ilə bağlı kifayət qədər şahid ifadələri var. Təkcə Azərbaycan jurnalistlərinin deyil, o dövrdə xarici ölkələrdən gəlmiş mətbuat nümayəndələrinin çəkdikləri fotoşəkillər, videogörüntülər, yazdıqları yazılar var. Bunların hamısı faktdır. Amma təəssüflər olsun ki, bu günə qədər Xocalı soyqırımı ilə bağlı hələ beynəlxalq səviyyəli hərbi tribunal yaradılmayıb. Bu da məsələyə ikili standartlardan yanaşmağın nəticəsidir. Bu da dünyanın idarə olunmasında haqsızlıqların, ədalətsizliklərin nəticəsidir. Ermənilər nə qədər faciələr törədiblər. Xocalı soyqırımından əvvəl Xocavənd rayonunun Qaradağlı kəndində törədilmiş soyqırımını da qeyd etməliyik. 100-dən çox dinc insan kütləvi şəkildə qətlə yetirildi. Ondan öncə Xocalının Meşəli kəndində, Ağdabanda törədilənləri yada salaq. Bunların hamısına beynəlxalq səviyyədə qiymət verilməlidir. Cinayətkarların adları məlumdur. Gözləyirlər ki, bu cinayətkarların hamısı dünyadan köçsün sonra desinlər ki, onlar həyatda yoxdur. Nəyə görə bu 30 il ərzində onlara qarşı cəza tədbirləri görülməyib? Əksinə, görün nə olub. Bu soyqırımların törədilməsində hərbi səhra komandirləri, siyasi rəhbərlər kimi iştirak edən Robert Koçaryan, Serjik Sarkisyan və başqaları hansısa dövlətlər tərəfindən mükafatlandırılıb, onlara vəzifələr verilib, Ermənistan dövlətinin prezidentliyinə, Azərbaycanda yaratdıqları separatçı cinayətkar "artsax" deyilən qurumun rəhbərliklərinə gətiriliblər. Onlar nəyə görə mükafatlandırılırdılar? Demək ki, hansısa xarici qüvvələrin tapşırıqlarını yüksək səviyyədə yerinə yetiriblər və mükafatlarını alırlar. Ölüm cəzasını almalı olanlar vəzifələrə gətiriliblər. Bu, bir çox məqamlardan xəbər verir.

**- Elman müəllim, xalqımıza qarşı törədilən qırğınlara, faciələrə baxmayaraq multikultural, tolerant dövlət kimi həmişə ədalətin tərəfdarı olan Azərbaycan bu gün də sülh tərəfdarı olduğunu Ermənistana etdiyi təklifləri ilə təsdiqləyir**

- Biz sülh tərəfdarı, multikultural, tolerant dövlət, eyni zamanda, humanist mövqedə olduğumuzu bütün əməllərimizlə sübut etmişik. Biz ölkəmizdə yaşayan xalqlara münasibətdə dilinə, dininə, irqinə görə heç bir ayrı-seçkiliyə yol vermirik. Bunu bütün dünya dövlətləri, beynəlxalq qurumlar bilir. Ədalətli olanlar etiraf edir, ədalətsiz olanlar da belə olduğunu bilərəkdən ya susur, ya da əksini deyir. Torpaqlarımızı işğaldan azad etmək üçün 44 günlük Vətən müharibəsi dövründə müharibənin bütün qayda-qanunlarına riayət etdik. Baxmayaraq ki, ermənilər bizim cəbhə bölgəsindən, döyüşlərin getdiyi ərazilərimizdən xeyli uzaqlarda olan şəhərlərimizi, kəndlərimizi çox güclü dağıdıcı silahlardan atəşə tutdular. Yüzlərlə dinc sakinimiz qətlə yetirildi. Nə qədər insanların, dövlətin malına, mülkünə ziyanlar vuruldu. Azərbaycan tərəfi buna cavab olaraq hansısa addımı atmadı. Baxmayaraq ki, ermənilər qəsdən atəş nöqtələrini Ermənistan ərazisində dinc əhalinin yaşadığı yerlərdə yerləşdirirdilər ki, Azərbaycan həmin əraziləri vursun. Azərbaycan bunu etmədi. Biz faktlarımızı ortaya qoyuruq. Hansı ərazilərimiz atəşə tutulub, nə qədər dinc insan şəhid olub. Yəni, Azərbaycan bütün addımlarında, hərəkətlərində, hətta müharibədə ədalətli mövqe tutub. Müharibə qaunlarına əməl etmişik. Ermənilər kimi yaramaz mövqe nümayiş etdirməmişik. Bütün bunlar dünyanın gözü qarşısında olub. Ona görə hətta, Azərbaycanı istəməyən dövlətlər də ölkəmizin ədalətli, haqlı mübarizəsini qəbul etməli oldular. Bu, faktdır, reallıqdır. Bu, bizim siyasətimizdir.

Biz bu gün də, müharibədən sonrakı dövrdə də Ermənistana sülh, əməkdaşlıq, mehriban qonşuluq təkliflərimizi veririk. Onlar da boğazdan yuxarı nəsə deyirlər. Guya razılaşırlar. Amma faktiki əməlləri, mövqeləri nədən ibarətdir? Bu da göz qabağındadır ki, onlar yalnız xəyanətkarlıqla, xəbisliklə, riyakarlıqla məşğuldurlar. Ermənistanın baş naziri deyir ki, biz də sülh sazişinin imzalanmasına razıyıq. Amma dünən, o biri gün nə bəyanat verirdi? "artsax" yaralanıb, amma hələ sınmayıbdır. Biz "artsax"ın tanınması, onun gələcəyi üçün tədbirlər görməliyik. Bu da müharibəyə çağırışdır. Yəni, onların heç bir sözünə, hərəkətinə etibar etmək olmaz.

Bizim yolumuz məlumdur. Biz sülh yolunu tutmuşuq. Tərəfdaşlıq yolunu tutmuşuq. Bizə qarşı kim səmimidirsə, biz də ona qarşı səmimiyik. Bizə qarşı silah qaldıranın başında öz silahı partlayacaq. "Dəmir yumruq" həmişə onların başı üzərində hazır vəziyyətdədir.

**- Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması istiqamətində görülən işləri necə şərh edərdiniz? Heydər Əliyev Fondunun "Xocalıya ədalət!" beynəlxalq kampaniyası hansı nəticələrə yol açıb?**

- Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılması istiqamətində əsas işlərin bünövrəsi ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra yaradılıb. Cənab İlham Əliyevin 2003-cü ildə Prezident seçilməsindən sonra bu işlər daha geniş miqyasda davam etdirilir. Bütün qurumlar bu işlərə öz töhfəsini verməlidirlər. Heydər Əliyev Fondunun gördüyü işləri xüsusilə qeyd etmək lazımdır. Fondun prezidenti Mehriban xanım Əliyevanın, vitse-prezidenti Leyla Əliyevanın gördükləri işlər, xüsusilə də "Xocalıya ədalət!" kampaniyası adı altında keçirilən tədbirlər öz müsbət nəticələrini verir. Xocalı soyqırımının tanıdılması istiqamətində Heydər Əliyev Fondunun tədbirləri davam edir və ilbəil də genişlənir.

Hesab edirəm ki, tutduğu vəzifəsindən, siyasi mövqeyindən, kimliyindən asılı olmayaraq hər bir azərbaycanlı, hətta, Azərbaycan vətəndaşı olmayanlar, dost, qardaş Türkiyənin ictimaiyyəti Xocalı soyqırımının tanıdılması, erməni vəhşiliyinin ifşa olunması üçün əllərindən gələni etməlidirlər.

**- Elman müəllim, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, 44 günlük İkinci Qarabağ müharibəsində erməni faşizmi məğlub edildi, amma tamamilə məhv etməmişik. Dövlət başçısı erməni faşizminin tamamilə məhvi üçün dünya birliyinə yenidən birlik, həmrəylik çağırışını ünvanlayır. Dünyanın bu çağırışa münasibətini necə şərh edərdiniz?**

- Əvvəla, dünyada birlik yoxdur. Dünyada müəyyən güc mərkəzləri var. O güc mərkəzləri ətrafında birləşən müxtəlif sayda dövlətlər var. Hərəsi də öz birliyini yaradıbdır. Dövlət başçısı İlham Əliyev beynəlxalq səviyyəli tədbirlərin birində erməni faşizminin dirçəldilməsi, ona haqq qazandırılması ilə bağlı real faktlara söykənən fikirlərini çatdırdı. Bu, faşist cəlladı və satqın Qaragen Njde ilə bağlı idi. Dövlət başçısı bildirdi ki, o, faşistdir, faşist ideologiyasına xidmət edib. O azərbaycanlılara, türklərə qarşı soyqırımı törədib. İkinci Dünya müharibəsi zamanı faşizmə xidmət edib və sovet ordusuna qarşı vuruşub. Ermənistanda isə ona 6 metr hündürlüyündə heykəl qoyulub və onun ideyaları dirçəldilir, bayraq edib əllərində tuturlar. Biz buna qarşı çıxmalıyıq. Bu, bir çağırışdır. O heykəlin sökülməsi ilə bağlı Azərbaycandan başqa hansısa dövlət Ermənistana söz dedimi? Xeyr. Əksinə, bu gün gəlib ərazimizdə yerləşən, adlarını sülhməramlı qoyub, amma özləri erməniməramlı olan rus hərbçilərinin himayəsi, onların nəzarəti altında Azərbaycanın Qarabağ ərazisində, Xocavənd rayonunda Njdenin yenidən heykəlini qoyublar. Yəni, dünyada bu məsələlərə baxışlar başqa cürdür. Hərə öz marağı çərçivəsində öz baxış prizmasından yanaşır. Biz fikirləşək ki, hamı bu məsələlərdə ədalətli, haqlı mövqe tutur, səhv etmiş olarıq. Hər kəsin öz maraq dairəsi var. Fransa kimi dövlət bilmirmi ki, Ermənistan faşist ideologiyası ilə yanaşır. Faşizm Fransaya nə qədər zərbə vurmuşdur, nə qədər insanı öldürüb, nə qədər dağıntılar edib. Ancaq Fransa Ermənistanla qardaşlıq edir. Burada çoxlarını qeyd edə bilərik. Biz öz sözümüzü deyirik, öz yolumuzla gedirik, öz siyasətimizi aparırıq və siyasətimizdə haqlıyıq. Biz deyirik ki, faşizm dirçəlməməlidir, baş qaldırmamalıdır. Ancaq erməni faşizmi uzun illərdir davam edən bir prosesdir. Bu gün də mövcuddur, yenidən dirçəlməyə çalışır. Ancaq cənab Prezidentimiz dəfələrlə xəbərdarlıq edib ki, əgər belə hal olarsa, Ermənistanda revanşist qüvvələr yenidən baş qaldırarlarsa, bu dəfə cavabımız çox sərt olacaq.

# "Xocalı soyqırımı işğalçı və cinayətkar erməni siyasətinin nəticəsidir"

*"Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri olan Xocalı soyqırımından 30 il ötür".Bu sözləri SİA- ya açıqlamasında Milli Məclisin deputatı Cavid Osmanov deyib. Deputat bildirib ki, 1992-ci il ilin fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan hərbi birləşmələri Xocalı şəhərində soyqırımı aktı törətdilər: " Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərinə hücum etdi və dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutdu.*

Hücum başladıqdan sonra şəhərdə qalan 2500-ə yaxın əhali azərbaycanlıların nəzarətində olan ən yaxın məkana çatmaq məqsədilə şəhəri tərk etməyə cəhd etdilər. Şəhəri tərk edən əhali pusquya salındı və Naxçıvanlı və Pircamal kəndləri yaxınlığında erməni hərbi postları tərəfindən ya atəşə tutularaq qətlə yetirildi, ya da əsir götürüldü. Əsasən qadın və uşaqlardan ibarət əhalinin qalan hissəsi dağlarda hərəkət edən zaman donvurma nəticəsində həlak oldular. Yalnız çox az sayda əhali Azərbaycanın nəzarətində olan Ağdam şəhərinə çata bildilər. Xocalı soyqırımı zamanı 106 qadın, 63 uşaq və 70 yaşlı insan olmaqla 613 nəfər qətlə yetirilmiş, 1275 sakin girov götürülmüş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini və 130 uşaq isə bir valideynini itirmişdir. Qətlə yetirilən insanlardan 56 nəfəri xüsusi qəddarlıqla öldürülmüşdür.150 nəfərin taleyi isə bu günədək naməlum qalıb".

Cavid Osmanov sözlərinə əlavə edərək bildirib ki, qədim mədəniyyətə, strateji önəmə malik Xocalı şəhəri, sözün əsl mənasında, işğalın nəticəsində xarabalığa çevrildi: "Ermənilərin insanlığa sığmayan dəhşətli cinayət əməlləri nəticəsində Xocalı şəhərində 105 sosial-məişət obyekti, 3200 fərdi yaşayış binası, 14 məktəb, 21 klub, 29 kitabxana, üç mədəniyyət evi və bir tarix-diyarşünaslıq muzeyi dağıdılıb. Bununla yanaşı, şəhərdə XIV-XV əsrə aid türbələr, günbəzlər, məzarlar yerlə-yeksan olunub, qəbiristanlıq vandallara xas üsullarla dağıdılıb, ümumiyyətlə, bu torpağın ən qədim sakinləri olan azərbaycanlılara aid bütün izlər silinib. Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuş Xocalı soyqırımına Ulu Öndər Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verilərək bu soyqırımın, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayət olduğu vurğulanmışdır. Məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul etmişdir. Xocalı soyqırımı əsrin Holokost, Oradur, Lidisa, Xatın və Sonqmi, Srebrenitsa kimi dəhşətli faciələri ilə bir sırada dayanır. Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli Xocalı faciəsi yalnız soyqırımı kimi insanlıq tarixinə düşmüş bu qanlı olaylarla müqayisə oluna bilər. XX əsrin faciəsi olan Xocalı soyqırımı işğalçı və cinayətkar erməni siyasətinin nəticəsidir. Dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsi olaraq Xocalı soyqırımı bir sıra ölkələr tərəfindən tanınmış və faciəyə beynəlxalq siyasi qiymət verilmişdir. Bu vaxtadək, Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası, Honduras, İordaniya, Meksika, Pakistan, Panama, Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Şotlandiya, İndoneziya və Əfqanıstanın qanunverici orqanları tərəfindən müvafiq parlament qətnamələri qəbul edilmişdir. Xocalı soyqırımı bu günə qədər ABŞ-ın




30-dan çox ştatın parlamentləri və qubernator proklamasiyaları səviyyəsində tanınıb. 2013-cü ilin fevral ayında Qahirədə keçirilən İƏT İslam Zirvə Konfransının 12-ci sessiyasında qəbul olunan Yekun Kommünikedə üzv dövlətlər Xocalı soyqırımının tanınması istiqamətində zəruri səylər göstərməyə çağırılırlar. Avropa İnsan Hüquqları Məhkəməsi 22 aprel 2010-cu il tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qırılmasını "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" kimi müəyyən etmişdir".

Milli Məclisin deputatı Cavid Osmanov qeyd edib ki, Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması prosesində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçirilən "Xocalıya Ədalət" kampaniyası əvəzolunmaz əhəmiyyətə malikdir: " "Xocalıya ədalət" beynəlxalq maarifləndirmə kampaniyasına Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə start verilmişdir. Kampaniya bir çox ölkələrdə səmərəli şəkildə fəaliyyət göstərir və hazırkı tarixdə 100 minlərlə şəxs və 115 təşkilat onun fəaliyyətini dəstəkləyir. Sosial şəbəkələr, sərgilər, toplantılar, müsabiqələr, konfranslar, seminarlar və digər oxşar tədbirlər kampaniyanın məqsədlərinə çatmaq üçün istifadə olunan səmərəli vasitələri təşkil edir. Ermənilərin Xocalı soyqırımı ilə əlaqədar cinayətkar əməllərinin ifşa olunmasında müstəsna rola malik olan Justice for Khojaly informasiya portalı təbliğat və maarifləndirmə işlərində geniş istifadə oluna bilər. "Xocalıya ədalət" kampaniyası Xocalı soyqırımının dünya ictimaiyyəti tərəfindən tanınması, ona hüquqi və siyasi qiymətin verilməsi, Ermənistan hökuməti tərəfindən rəsmi üzr istənilməsi, bu hadisələrin bir daha törədilməyəcəyinə təminatın verilməsi və vurulmuş həm maddi, həm də mənəvi ziyana görə tam olaraq kompensasiyanın ödənilməsi, müvafiq cinayətlərin törədilməsinə görə məsuliyyət daşıyan şəxslərin cəzalandırılması, soyqırımı barədə dünya ictimaiyyətinin məlumatlılığının artırılması, soyqırımı qurbanlarının xatirəsinin yad edilməsi, sağ qalmış ailələrə dəstək göstərilməsi, bu hadisələrin yaddaşlarda yaşaması, xüsusən də gənc nəsil tərəfindən unudulmaması kimi strateji məqsədləri özündə ehtiva edir. Xocalıda qətlə yetirilənlərin əziz xatirəsi Azərbaycan xalqının yaddaşında yaşayır. Ulu Öndər Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli sərəncamı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilmişdir. Hər il Xocalı soyqırımının ildönümü ilə əlaqədar minlərlə insanın iştirakı ilə "Ana harayı" abidəsi önündə anım mərasimi keçirilir. 26 fevral 2017-ci il tarixində XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 25-ci ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın iştirakı ilə keçirilmiş yürüşdə 40 mindən çox insan iştirak edib. Xocalı faciəsi təsadüfi hadisə deyil. Xocalı faciəsini törətməklə ermənilər xalqımızı qorxutmaq, mübarizə əzmini qırmaq, tarixi torpaqlarımızın bir qisminin itirilməsi ilə barışmağa məcbur etmək istəyirdilər. "Xocalı faciəsi erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi" - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu sözləri dünya ictimaiyyətinin diqqətini erməni vandalizminə cəlb etməsi siyasətinin əsasını təşkil edir. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin də qeyd etdiyi kimi, Xocalı şəhidlərinin qanı yerdə qalmadı. 2020-ci il Vətən müharibəsində Azərbaycan Ordusu 30 il işğal altında qalan torpaqlarımızı azad etməklə yeni reallıq yaratdı, "dəmir yumruq" qalib gəldi. 44 günlük müharibədə misilsiz igidlik nümunələri göstərən qəhrəman ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Xocalı faciəsi qurbanlarının da qisasını aldı, şəhidlərimizin qanı yerdə qalmadı. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, Vətən yenidən bütövləşdi".

***Qönçə Quliyeva***

# "Rusiya dayandırılmasa dünya üçün daha böyük təhlükə yaranacaq"

***"Rusiyanın Ukraynaya qarşı başladığı hərbi müdaxilə təkcə MDB regionunu deyil, bütün dünyanı dəhşətli fəlakətin son həddinə gətirdi. Artıq hamı etiraf edir ki, bu ikinci dünya müharibəsindən sonra bəşəriyyətin üzləşdiyi ən böyük müharibə təhlükəsidir". Bunu "Səs" qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov deyib.***



Abutalıb Səmədov təəssüf hissi ilə bildirib ki, Qərb dövlətləri liderlərinin hadisələrin təhlükəli inkişafının qarşısını almaq, Rusiya və Ukrayna dövlət başçılarını sülhü qorumaq naminə danışıqlara cəlb etmək cəhdləri uğursuzluqla nəticələndi: "Bu uğursuzluğun əsas səbəbi bir tərəfdən Rusiyanın barışmaz mövqe tutması və bütün dünya ilə "ultimatum dili" ilə danışması, digər tərəfdən Ukrayna tərəfinin qərb dövlətlərinin məsləhətini dinləməməsi və "Minsk razılaşmaları"nı icra etməkdən qəti şəkildə imtina etməsi oldu. Fransa prezidenti E.Makronun "vasitəçilik missiyasının" uğursuzluqla nəticələnməsindən sonra hərbi əməliyyatların başlanacağı heç kimdə şübhə doğurmurdu. Ancaq sonradan atılan addımlar, baş verən hadisələr bütün gözləntilərdən dəfələrlə təhlükəli oldu. Rusiya əvvəlcə iki separatçı qurumu, Donetsk və Luqansk "respublikalarını" tanıdı, onların rəhbərləri ilə əməkdaşlıq müqavilələri imzaladı və hərbi qüvvələrini bu separatçı ərazilərə yeritdi. Bununla kifayətlənməyən Rusiya prezidenti bir neçə istiqamətdən Ukraynaya geniş miqyaslı hücum etmək, onun hərbi strukturlarını sıradan çıxarmaq, silahsızlaşdırmaq, hadisələrin bu həddə çatmasında günahkar olan şəxsləri cəzalandırmaq və Ukraynada hakimiyyət dəyişikliyinə nail olmaq üçün rus ordusuna hərəkətə keçmək əmrini verdi. Dünya birliyi, ilk növbədə, qərb ölkələri Rusiyanı durdurmaq üçün real addımlar ata biləcəkmi? Yoxsa, yenə də yarımçıq tədbirlərə üstünlük verəcək və Gürcüstanın arxasından Ukrayna da qurban veriləcək? Ümid edirəm ki, bu baş verməyəcək və həm ABŞ, həm də Avropa birliyi ən kəskin, ən təsirli silahlarını işə salacaq və Rusiyanı təhlükəsizləşdirmək üçün əlindən gələni edəcək. Rusiya Ukraynada durdurulmasa növbəti addımlar bütün dünya üçün daha böyük təhlükə yaradacaq. Son günlər baş verən hadisələr Azərbaycan hakimiyyətinin nə qədər müdrik siyasət apardığının bir daha təsdiqi oldu. Azərbaycan Prezidenti ilin əvvəlində çoxlarının getməyə cəsarət etmədiyi Kiyevə səfər edərək həm Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha bəyan etdi, həm də, Rusiya ilə "Müttəfiqlik bəyannaməsi" imzalayaraq qarşımıda duran problemlərin həlli istiqamətində mühüm addım atdı. Bu addımları atmaqla dövlət başçımız bir tərəfdən Ukrayna-Rusiya qarşıdurmasına münasibətdə dəyişməz mövqeyimizi bir daha ortaya qoydu, digər tərəfdən, Azərbaycanı mövcud olan və qarşıya çıxa biləcək təhlükələrdən qoruya bildi. Bu vəziyyətdə "demokratiya sammiti"nin iştirakçısı olan Ermənistan necə davranacaq? Ukraynanın ərazi bütövlüyünü müdafiə edib, Rusiyanın işğalçılıq hərəkətlərini pisləyə biləcəkmi? Təbii ki, edə bilməyəcək və Rusiyanın yanında olmaqla özünü bütün dünyada bir daha ifşa edəcək".

***Gülyana***

# Bir-birinin şəhadətini izləyən şəhər və sakinləri



**Mətanət Məmmədova**
**Əməkdar jurnalist**

***30 il öncənin bu gecəsi uyuyurdun, Xocalı. Hər bir təhlükədən, bir neçə saat sonra səni gözləyənlərdən xəbərsiz uyuyurdun. Nə bilərdin ki, Bakıda əyləşən rəhbərlər sənin ölüm fərmanını lap çoxdan veriblər. Səni itaətində həmişə başıaşağı olduqlarına satıb, heç narahatlıq nədir, keçirməyiblər. Nə bilərdin? O zaman oyandın ki, düşmən başına od-alov yağdırır. Bir fevral gecəsinin soyuq-sazağına qarışan bu od-alov havada buz parçalarına çevrilirdi. Çevrilirdi ki, bir azdan yuxudan səksəkə içərisində oyanan günahsız insanların sinələrinə yapışa. Nə qədər müdhiş gecəydi o gecən, Xocalı… Öncə düşmənin od saçan silahlarına sən tuş gəldin.***

Uçuldun, töküldün, gözəlliklərin, abadlığın bir neçə anın qurbanı oldu. Gecənin qaranlığını yarıb pəncərələrdən otaqlara dolan o ölüm parıltısı oyatdı sakinlərini yuxudan. Nə olduğunu aydınlaşdırmağa çalışan insanlar ora-bura qaçaraq nə edəcəklərini bilmədilər. Körpələrin səsi gecənin sükutunu pozan silahların da səsini batırdı. Az sonra xocalılar nəyin baş verdiyini anladılar. Çünki qonşusu heysiyyətsiz, acgöz, vəhşi olanlar nəyin baş verdiyini artıq təxmin etməkdə idilər. İlk qərarları nə olursa-olsun səni müdafiə etmək oldu. Nə qocaları, nə körpələri, nə xəstələri gözlərinə gəldi. Ayağı yer tutan sənin müdafiənə qaçdı. Paytaxta zəng zəng dalınca vuruldu. Xilasın üçün kömək istənildi. Gözlər yollara, qulaqlar hələ də susmaqda olan telefonlara dikildi. Saatlar ötdü, lakin "Xocalı əldən gedir, kömək edin!",- deyənlərə cavab verilmədi. Sən sakinlərinin gözü qarşısındaca şəhid olurdun, son nəfəsini verirdin. Sən yandıqca, alovlandıqca düşmən gecənin şaxtasını sənin alovlarınla dəf edir, soyuq nədir, bilmir, üşümürdü. Artıq sənin yaxandan əllərini çəkib sakinlərini silahların hədəfinə almışdılar. Bayaqdan sənun üçün övladından, xəstəsindən, qocasından keçib xilasın üşün ora-bura əl atan insanlar artıq bir şəhid şəhərə baxa-baxa şəhadətə hazırlaşırdılar. Onlar səninçün göz yaşı tökürdülər, sinələrini qabağa verib qan axıdırdılar. Sənsə ey yandırılan şəhər, odun-alovunla onların dərdinə yanırdın. İki varlıq-bir şəhər və həmin şəhərin yüzlərlə sakini bir - birinin şəhadətini izləyirdi. Bir-birinin gözü qarşısında son nəfəslərini yaşayırdılar. Sən gedə bilməzdin, sən kök idin, ocaq idin. Sən sakinlərini tərk edə bilməzdin. Ona görə də yerindəcə yanıb-yaxılırdın, şəhid olurdun. Sakinlərinsə səni qoyub gedə bilmirdilər, sən onların ocağıydın, səndə onların dünəni, o günü, gələcəyi vardı. Necə qoyub gedərdilər axı səni? Getmədilər də, o vaxta kimi getmədilər ki, düşmən yarıdan çoxunu sənin kimi şəhid etdi. Silahı üzərlərinə tuşlayıb səni tərk etmələrini çığıranda yenə də sənə-sənin meşələrinə, dağlarına üz tutdular. Düşmənsə qana susamırdı, onları qarabaqara izləyirdi. Son nəfərədək öldürüb, sənə biryolluq sahib olmaq istəyirdi. Nə zülmlər, dəhşətlər yaşadı o gecə sakinlərin. Soyuq bir yandan, qorxu-vahimə bir yandan, kəsilən başlar, axan qanlar bir yandan, salamat qalanların ağrı-dan-acıdan ərşlə bir səsini içinə gömməsi bir yandan o gecənin dəhşət dolu mənzərəsini yaradırdı. Ağlayan körpəsini susdurmaq artıq hər bir ana üçün dünyanın ən çətin məsələsinə çevrilirdi. Nə etsinlər, nəfəsləri də hiss olunmasın ki, düşmən yerlərini bilməsin kimi düşüncələr insanların bağrını çatladırdı

Hər qarış torpağın nalə çəkirdi, kömək istəyirdi. Lakin nə gələn, nə də kömək edən vardı. Sən satılmışdın düşmənə, kim gələcəkdi harayına? Bilə-bilə ki, sənin də, sakinlərinin də şəhadət anıdır, başlarını rahatca atıb yatmışdılar dövlətimizi etibar etdiklərimiz. Necə də yuxuları gəlmişdi o gecə, İlahi? İnsan öz doğma torpağına, millətinə bu qədər necə qəddar ola bilərdi? Bir şəhər, yüzlərlə sakin üçün acı tale hökmünü verib neçə nəfəs almaq olardı? Maraqlıdır, görəsən bütün bu vəhşiliyin qarşılığı vəzifələrini qorumaq idisə, neçə-neçə torpağın satılması kimlərinsə əmrinə itaətin nümunəsi idisə, tarixin qara səhifələrinə düşməkdənsə, ölümü seçmək nə qədər gözəl, deyilmi? Nə düşünürdülər, düşünürdülər ki, etdikləri gizlimi qalacaq. Xalq onların əməllərindən bixəbərmi olacaq? Ey fani insan, bu dünya kimə qalıb, bu dünyanın hansı sirri qapalı qalıb? Bilindi, elə o gecə xocalılara məlum oldu, səhəri gün isə bütün Azərbaycan bildi ki, Xocalı satılıb, sakinləri bilərəkdən ölümün qucağına atılıb. Nə vəzifələri, nə canlarından çox sevdikləri kresloları onlara qaldı. Qazandıqları millət xaini, vətən xaini adı oldu. Həm özləri, həm də bundan sonra neçə-neçə nəsilləri bu lənətlənmiş adla yaşayacaqlar. Əgər buna yaşamaq demək olarsa

Xocalı, 26 fevral səhərini sakinlərin də qoynunda şəhid kimi açdın. Soyulub talan edilmişdin, şəhid sakinlərin isə vandalizmə məruz qalmışdılar. Cənazələrə olmazın əziyyəti verilmişdi: gözlər oyulmuş, dərilər soyulmuş, beyinlər dağıdılmış, qarınlar yırtılmışdı. Budurmu insanlıq, budurmu Allahın ali yaratdıqları? Tək bunları gizlədə bilmədi rəhbər heyət. Gizlədəcəkdilər, lakin o gecənin "şirin" yuxusundan geç oyandılar. Onlar oyananda artıq orada şəkillər çəkilmiş, nə baş verdiyi hər kəsə məlum olmuşdu.

Bu gün şəhadətindən 30 il ötür, Xocalı, bu 30 ilin bir günü, bir dəqiqəsi, bir anı yaddan çıxmadın sən. Çıxa da bilməzdin axı. Dünyada baş verən soyqırımların, qırğınların ən dəhşətlisi idin. Gözlərimiz önündə 1988-ci ildən ölkəmizə qarşı başlanan torpaq iddiasının, 20 Yanvar hadisəsinin davamı idin. Sən çıxardın ozamankı rəhbərlərin iç üzünü ortaya. Nə xislətdə olduqlarını xalqına bəyan etdin. Səndən sonra silindilər onlar, tarixin qara, ləkəli arxivinə yola salındılar. Düz otuz ildir, sən hər bir azərbaycanlının dilində sözü-söhbətisən. Bir an belə unudulmamısan. Sən ümummilli liderimizin, onun layiqli davamçısının, ailə üzvlərinin həyata keçirdiyi hərtərəfli tədbirlər sayəsində bütün dünyaya tanıdılmısan. Müasir gənclərimiz bu işlərin fəal iştirakçısı olub, ermənilərin ifşasında əllərindən gələni ediblər. Səndən cəmi bir il sonra ölkəmizin taleyi üzünə güldü. Ümummilli liderimiz Heydər Əliyev insanların təkidi ilə rəhbərliyə gəldi, 2003-cü ildə isə xalq öz layiqli rəhbərini seçdi. O rəhbər ki, ötən 17 ildə həyata keçirdiyi düşünülmüş siyasət, gələcəyə hesablanmış mütərəqqi addımlar müstəqil ölkəmizin hərtərəfli inkişafı ilə yanaşı, ərazi bütövlüyünün bərpasını da reallaşdırdı. 2020-ci ildə 44 gün ərzində ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuz Qarabağda öz gücünü, şücaətini göstərdi. 44 gün ərzində 30 ilin bütün müdafiə istehkamları dağıdıldı, erməni ordusu məhv edildi. Torpaqlarımız geri alındı, şəhidlərimizin qanı yerdə qalmadı. 30 ildə tamamilə dağıdılmış Qarabağ indi yenidən qurulur, yaradılır. İnsanlar ata-baba yurdlarına qayıtmağa tələsirlər. Bu gün bütün dünya Azərbaycandan, onun qüdrətindən, xalqın rəhbərinə, torpağına sevgisindən, insanların vətənpərvərliyindən danışır. İndi Azərbaycan dünyaya nümunə gücündə olan müstəqil bir ölkədir.

Bütün bunlarla xocalıların, eləcə də bütün şəhidlərimizin ruhu şaddır. Hələ qarşıda həyata keçirilməsi mühüm olan məsələlər var ki, onların reallaşması ilə bütün dünya erməniləri daha yaxşı tanıyacaq, Azərbaycanın haqq səsinə səs verməklə bizim həmişə haqlı olduğumuzu təsdiqləyəcəklər. O gün uzaqda deyil.

# "Rusiya dünyaya meydan oxuyur"



**SİA Politoloq Qabil Hüseynlinin müsahibəsini təqdim edir:**

***- Rusiyanın Ukrayna ərazisində hərbi əməliyyatlara başlaması və baş verən son prosesləri necə qiymətləndirirsiniz?***

- Rusiya Ukrayna tərəfindən açıq təcavüzə uğrayır və beynəlxalq hüquq normaları tapdalanır. Rusiya Ukraynanın suveren hüquqlarını pozduğu üçün bu, təcavüzkar müharibə adlandırılır. Rusiya-Ukrayna müharibəsi bütün dünyaya zərər verəcək. Bu dəfə dünya ictimaiyyəti Rusiyanın hücumunu qətiyyətlə pisləyir və Ukraynaya ciddi yardım göstərməkdə həvəsli görünür. Rusiya istədiyini həyata keçirə bilməyəcək və biabrçı məğlubiyyətə uğrayacaq.

Düşünürəm ki, bu müharibə Rusiya üçün pis nəticələr doğuracaq. Çünki diqqət yetirsək ölkədə rublun dəyəri iki gündə iki dəfə azalıb. Əgər 50 rubl 1 dollar idisə, bu gün 100 rubl 1 dollardır. Ölkədəki oliqarxların bir neçə gün ərzində varidatları 50 milyard dollar azalıb. Müharibə davam etsə ciddi nəticələrin şahidi olacağıq. Bundan başqa digər ölkələr Rusiyaya sanksiyalar tətbiq etsə, vəziyyət daha açınacaqlı olacaq. Hazırda Ukrayna ordusu Rusiyanın hücumlarını dəf edir. İndiyədək 6 təyyarə və iki helikopterin vurulduğu bildirilir. Hava hücumu zamanı Ruslar qırıcı təyyarələrdən və raketlərdən istifadə edir, Ukrayna ərazisindəki dronları sıradan çıxarmağa çalışır. Bütün bunlara baxmayaraq Rusiyanın quru qoşunları və tanklar irəliyə doğru hərəkət edə bilmir. Çünki Ukrayna ordusu tank əleyhinə ən müasir silahlarla silahlandırılıb. Yəni bu gün Rusiya dezinformasiya yayaraq öz uğurları ilə bağlı danışa bilər. Lakin buna çox inanmaq lazım deyil. Buna görə informasiyaları birtərəf mənbələrdən əldə etmək lazımdır.

***- Luqansk və Doneskt vilayətlərinə muxtariyyət verilməsi düzgün addım idimi?***

- Rusiya zorakı yollarla vəziyyəti qəbul etdirməyə çalışır. Qondarma respublikaların müstəqilliyini tanıdı. Daha sonra Rusiyanın Dövlət Duması bu sənədi ratifikasiya etdi. Putin də bu qərarı imzalayaraq təsdiq etdi. Rusiya tərəfi guya ki, Luqansk və Donetski müstəqil dövlət kimi tanıyır. Rusiya özü qondarma "respublika"lar qurub özünə tabe etdirmək yolu ilə açıq işğal siyasətini həyata keçirir. Dünya Rusiyaya etdiyi hərəkətə görə bədəl ödətdirəcək.

***- Azərbaycanın bu münaqişəyə münasibəti necə olacaq?***

- Azərbaycan Ukraynanın ərazi bütövlüyünü müdafiə edir. Bununla bağlı bəyanatlar da verib. Cənab Prezident İlham Əliyevin təxminən 1 ay əvvəl - müharibədən öncə Ukraynaya səfər etməsi bunu deməyə əsas verir ki, Azərbaycan Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir. Təbii ki, dünya ölkələri kimi biz də Rusiyanın təcavüzkar siyasətini pisləyirik. Amma bunu açıq şəkildə ifadə etmək və dünyaya çar çəkmək düzgün olmaz. Çünki Azərbaycanın özündə həll olunması məsələləri çoxdur və bu məsələlərin həlli prosesində Rusiya da iştirak edir. Azərbaycan Ukrayna və Rusiya arasında balanslı siyasət yürüdür.

***- Kənar qüvvələrin münaqişəyə müdaxilə etməsi gözlənilirmi?***

- Düşünürəm ki, ilk vaxtlarda dünya ölkələri Ukraynaya silah və maliyyə yardımı göstərəcək. Vəziyyətin gərginləşməsi davam edərsə Ukrayna-Polşa-Böyük Britaniya üçlüyünün Rusiyaya qarşı müharibəyə başlayacağı an məsələsidir. Polşa və Böyük Britaniya hətta canlı qüvvə və digər vasitələrlə Ukraynadakı proseslər qoşula bilər. Amerika Birləşmiş Ştatları da hansısa formada Ukraynaya tək olmadığını hiss etdirəcək. ABŞ həm də canlı qüvvə baxımından kömək edə bilər. Bunu mən təxmin edirəm.

***- Münaqişəni dayandırmaq üçün nə etmək lazımdır? İndiki məqamda sülh danışıqları aparıla bilərmi?***

- Dünyanın böyük əksəriyyəti Ukraynanı müdafiə edir. O cümlədən də Qərbin bütün ölkələri Rusiyanın hərəkətlərini XXI əsrdə dünyaya meydan oxumaq kimi qiymətləndirir. Ukraynanın gücü bundadır ki, anti-Rusiya koalisiyası genişlənir. Bununla da Ukrayna mövqeyini gücləndirir. Güclü zərbə vurulsa Rusiya geri çəkilməyə və sülh danışıqları aparmağa məcbur olacaq.

***Qönçə Quliyeva***

# "Rusiya müttəfiqlik münasibətlərində maraqlı olduğunu sübuta yetirdi"



***"Azərbaycanın qonşu dövlətlərlə münasibətləri daim mehriban qonşuluq prinsiplərinə əsaslanıb, ölkəmiz daim etibarlı tərəfdaş kimi öz dəyişməz mövqeyini nümayiş etdirib. Prezident İlham Əliyev cənablarının siyasi fəaliyyətinin əsas istiqaməti regionda sülh və təhlükəsizliyin, sabitliyin təmin olunması təşkil edir və bu mühüm amil Rusiya Federasiyası ilə imzalanmış Müttəfqlik Bəyannaməsi vasitəsi ilə də sübuta yetirildi". SİA xəbər verir ki, bu fikirləri Yeni Azərbaycan Partiyasının (YAP) Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov bildirib.***

Onun sözlərinə görə, iki dost ölkələr arasında imzalanmış Bəyannamənin əhəmiyyəti həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, Azərbaycan regionun lider dövləti kimi qəbul olunur, dəyərləndirilir: "Düşünürəm ki, Azərbaycanın regionun lider dövlətinə çevrilməsi, qalib dövlət olaraq yaratdığı yeni konfiqurasiya regionda sülh və təhlükəsizlik naminə səyləri göstərir və bütün dövlətlər, o cümlədən Rusiya tərəfindən də yüksək qiymətləndirilir və Rusiya qarşılıqlı addımlar atmaqla Azərbaycanla müttəfiqlik münasibətlərində maraqlı olduğunu sübuta yetirdi".

"Bütövlükdə isə biz həm də belə nəticə hasil edə bilərik ki, Moskva Bəyannaməsi Azərbaycan-Rusiya dövlətləri arasında mövcud olan etibarlı və etimadlı münasibətlərin müttəfiqlik mərhələsinə keçməsinə zərurət yaradırdı", deyən Abil Ağasəfov əlavə edib ki, həmin reallığın eyni zamanda iqtisadi əlaqələrin inkişafına, qarşılıqlı investisiya qoyluşunun artmasına, turizim əlaqələrinin genişlənməsinə, həmçinin, hərbi əməkdaşlığa öz töhfələrini verəcək: "Yeri gəlmişkən, qətiyyətlə deyə bilərik ki, Bəyannamə Ermənistanın uydurduğu çoxsaylı utopik stereotiplərinin məhv olmasını sübuta yetirdi. Onlar 30 il iddia edirdilər ki, Rusiya Ermənistanın ən yaxın hərbi-iqtisadi müttəfiqidir. Hətta işğal altında olan torpaqlarımızı 44 günlük Vətən müharibəsində azad edərkən ermənilər Rusiyanın onlar tərəfindən döyüşəcəyini iddia edirdilər. Amma bunun heç də belə olmadığını məhz Prezident İlham Əliyev cənablarının qətiyyəti, siyasi iradəsi, eləcə də həyata keçirdiyi uğurlu siyasət isbatladı, Ermənistanın xəyallarını, kirli niyyətlərini puça çevirdi. Moskva Bəyannaməsi qarşıda özünün nə qədər əhəmiyyətli sənəd olduğunu daha çox və geniş şəkildə göstərəcək və bu bilavasitə Azərbaycanın dövlət başçısının uzaqgörən siyasətinin məntiqi nəticəsidir".

# Anar Nəbiyev: "Bəyannamə faydalı münasibətlərin inkişafına, regional təhlükəsizliyə müsbət təsir göstərəcək"

***"2022-ci il fevralın 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında" Bəyannamə imzamaları regionumuzda yeni siyasi-iqtisadi eranın başlanması anonsunu verdi". Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyasının (YAP) Qazax rayon təşkilatının sədri Anar Nəbiyev bildirib.***




Onun sözlərinə görə, Prezident İlham Əliyev cənablarının bilavasitə rəhbərliyi ilə aparılan xarici siyasət diplomatiyasına nəzər saldıqda görərik ki, müttəfiqlik sənədinin hazırlanması və tərəflər arasında razılaşdırılması heç də asan proses deyil və bu mühüm sənəd 2008-ci ildə imzalanan Azərbaycanla Rusiya arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamənin uğurlu davamı kimi də qiymətləndirilə bilər: "Hesab edirəm ki, Azərbaycanla Rusiya arasında imzalanmış qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında Bəyannamə iki dövlət arasındakı etimadlı münasibətlərin danılmaz sübutudur. Belə ki, Bəyannamə qarşılıqlı faydalı münasibətlərin inkişafına, regional təhlükəsizliyə müsbət təsir göstərəcək, Azərbaycan-Rusiya münasibətlərinin istər iqtisadi, istərsə də siyasi və hərbi tərəfdaşlıq müstəvisindəki inkişafına böyük töhfələrini verəcək".

YAP-ın Qazax rayon təşkilatının sədri xatırladıb ki, 2021-ci il iyun ayının 15-də Şuşada Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzaladılar və bu sənəd hər iki ölkənin parlamentləri tərəfindən təsdiq olundu: "Artıq Moskva Bəyannaməsinin də imzalanması Cənubi Qafqaz regionunda yeni konfiqurasiyanın əsas oyunçularını müəyyən etdi. Azərbaycan, Türkiyə və Rusiya birlikdə regionumuzun təhlükəsizliyini, iqtisadi inkişafını təmin edəcəklər. Qarşıda bu üçlüyün daha çox uğurlu platformalarda bir araya gələcəklərini, birləşəcəklərini əminliklə proqnozlaşdıra bilərik. O cümlədən, Azərbaycanın regionda yaratdığı yeni reallığın tam olaraq qəbul edilməsi mühüm əhəmiyyət daşıyır. Yəni qardaş Türkiyə ilə imzalanmış Şuşa Bəyannaməsi kimi, dost və qonşumuz Rusiya ilə imzalanan Moskva Bəyannaməsi də Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə və təhlükəsizliyinə zəmanət verir. Beləliklə, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında öz müstəqil siyasətinə, təhlükəsizliyinə əlavə zəmanət qazanır. Ümumilikdə Bəyannamədə 40-dan çox bəndin, müddəaların yer alması da belə qənaətə gəlməyə əsas yaradır".

"Eyni zamanda, hesab edirəm ki, Qoşulmama Hərəkatının yaradıcısı və rəhbərliyində olan Azərbaycanın bütün ölkələrlə, xüsusilə qonşu ölkələrlə tərəfdaş, qarşılıqlı və strateji müttəfiqlik səviyyəsində əlaqələrini qurması bəzi qüvvələrdə qısqanclıq yaratsa da, ümumilikdə ölkəmizin və regionun təhlükəsizliyi baxımından önəmli əhəmiyyət kəsb edir", deyən Anar Nəbiyev onu da bildirib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin yürütdüyü son dərəcə uğurlu siyasət ölkəmizin müstəqil siyasətinə, təhlükəsizliyinə, suverenliyinə zəmanət qazandırır. Bütün bunları qətiyyətli mövqenin, güc və bacarığın, məharətli diplomatiyanın nəticəsi kimi qiymətləndirmək lazımdır.

*Rövşən RƏSULOV*



# Müharibə isə davam edir…

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Qərb köhnə sanksiyalarını yeni komponentlər əlavə etməklə yenidən tətbiq edir. Lakin son günlərin baş verənləri göstərir ki, Ukrayna heç də bunları gözləmir(di), Ukraynanın gözləntiləri, ümidləri başqa cür idi... Fkat budur ki, hətta ən ağır sanksiyalarla belə "rus ayısının" qarşısını almaq mümkün deyil. Prezident Zelenski artıq Rusiyanın SWIFT-dən kənarlaşdırılmasını, həmçinin NATO tərəfindən hava məkanlarının bağlanmasını tələb edir. Ukrayna prezidentinin çağırışını hələ ki, Almaniya dəstəkləyib və hava məkanını Rusiyanın üzünə bağlayıb, NATO isə Zelenskinin tələbini rədd edib (?!)***

Bəli, Qərb Ukraynanı müharibəyə təhrik etdi və bu gün orada baş verənlərin əsas səbəbkarlarında birinin də məhz bu qütb olması kimsəyə sirr deyil. Qərb uzağı Ukraynaya silahlar, hərbi-texniki vasitələr, tankvuranlar, kiçik həcmli raketlər göndərməklə və yararsız sanksiyaları səsləndirməklə işini bitmiş hesab etdi.

### Taktiki geriçəkilmə işə yarayacaqmı?

Danılmaz fakt isə həm də budur ki, Ukrayna Rusiya qarşısında tək qalıb. Artıq o da açıq-aşkar bəllidir ki, Ukrayna Rusiya ilə hərbi qarşıdurmada yalnız öz gücünə arxalanmalıdır. Ukrayna silahlı qüvvələrinin bundan sonra hansı effektlə işləyəcəyini isə yaxın vaxtlarda daha aydın şəkildə müşahidə edəcəyik. Buna qədər isə rus ordusunun müxtəlif birlikləri şəhər və qəsəbələrə, eləcə də paytaxt Kiyevə doğru sürətlə hərəkət etməkdədir. Üstəlik əziyyət çəkən xalq da atəş xətti altında qalır - mülki obyektlər raket və bombardmanlar altında yanıb-kül olur!

Lakin dərin hücumlar, ukraynalı birliklərin mövqelərini keçmək qələbə anlamını daşımır və mümkündür ki, Ukrayna silahlı qüvvələri taktiki geriçəkilmə funksiyasını işə salaraq sonradan rus ordusuna daha ağır zərbələr endirməyi planlayıb. Amma bu da bir ehtimaldır və reallığa çevrilib-çevrilməyəcəyini də yaxın gələcəkdə müşahidə edəcəyik.

### Həm Ukrayna, həm də Rusiya ümidvardırlar ki, üstünlük əldə edəcəklər

Müharibənin nəticələrini həll edəcək daha bir amil isə həm Ukrayna, həm də Rusiya daxilindəki dinamik təsirlərdir. Ukrayna daxilində olanlar məlumdur - xalq ölkənin müdafiəsinə qalxıb. Rusiyada isə fərqlidir - xalqın böyük kəsimi müharibə istəmir və artıq etirazlar dalğası da böyüməyə başlayır. Məsələ danışıqlar masasına gəldikdə isə bunun da əsasının yaxud istəyin olması görünmür. Həm Ukrayna, həm də Rusiya ümidvardırlar ki, üstünlük əldə edəcəklər. Daha dəqiq desək, Rusiya blits-krikin gerçəkləşəcəyinə, Ukrayna isə blits-krikinin reallaşmayacağına inanır. Ancaq daha bir fakt budur ki, istənilən müharibənin sonu sülh danışıqları ilə nəticələnir. Bəs belə olan halda danışıqlar meydançası hansı nüfuzlu strukturlarda qurula bilər?

### Danışıqlar: Türkiyə variantı daha geniş müzakirə olunur

ATƏT hesaba alınmır və öz təsirini itirib. BMT-nin Təhlükəsizlik Şurası da mümkün deyil, Rusiyanın vetosu istənilən qərarı qəbuledilməz edir. Görünən budur ki, hətta danışıqlar meydançası üçün də hər hansl platforma mövcud deyil və onun yaradılması ehtiyacı yaranmağa başlayıb.

Buna qədər isə bir sıra ölkələrin individual təşəbbüsləri ola bilər, amma onun üçün də tərəflərin ümumi razılığı, etimad səviyyəsi yaranmalıdır. Belə ölkələr sırasında Almaniya, Fransa və Türkiyə də var. Məhz Türkiyə variantı daha geniş müzakirə olunur və ümid edək ki, bu variant müharibənin dayandırılması mexanizmini işə salacaq, hadisələrin daha geniş trayektoriyaları əhatə etməməsinə imkan verəcək. Hələlik isə qanlı-qadalı və amansız müharibə davam edir...

***Rusiya ilə geniş spektrdə müttəfiqlik bəyannaməsi imzalanandan sonra daha geniş sahələrdə birgə əməkdaşlıq dövrü başlayacağı sirr deyil. Bu əməkdaşlıq iqtisadiyyat sahələrində, həmçinin energetika sahəsində də olacaq. Bu bəyannamədən sonra bəziləri Rusiyanın köməyi ilə Azərbaycanda AES tikilməsinin vacibliyini vurğulayır və qeyd edirlər ki, bununla Azərbaycan energetika sistemini daha da gücləndirər, əlavə gəlirlər əldə edər. Misal üçün Türkiyəni göstərirlər ki, Rusiya orada AES tikir və bu stansiya çox böyük enerji verəcək. Lakin Türkiyə Azərbaycandan fərqli olaraq enerji resursları olmayan ölkədir və enerji idxalından asılıdır. Bəs Azərbaycanda atom enerjisinə ehtiyac varmı? Bu yazıda bu məsələni təhil etməyə çalışacağıq.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.*



ARAŞDIRMA

# Atom enerjisi: Azərbaycanda buna ehtiyac varmı?

### İlk AES SSRİ-də, ilk atom qəzası isə ABŞ-da olub

İlk AES qəzası ABŞ-da olmuşdu, amma onun nəticələri elə də ağır olmamışdı. 36 il isə, SSRİ-də (Çernobıl AES-də) tarixin ən böyük texnogen qəzası baş verdi. Hadisədən sonra radioaktiv bulud bütün Avropanı bürüdü.

Qəza zamanı onlarla insan öldü. Ukraynanın özündə, Belorusiyada, Rusiyada yaşayan 600 mindən artıq sakin radiasiya şüalanmasına məruz qaldı.

Ölkə iqtisadiyyatına da böyük zərər dəydi. Qəzanın nəticələrini aradan qaldırmaq üçün uzun müddət güclü mübarizə aparıldı, 700 minədək Sovet insanı nəticələrin ağırlığını önləmək üçün gerçək qəhrəmanlıq göstərdi.

Hazırda Çernobıl ətrafındakı 30 kilometr məsafə ölü zona hesab edilir və orada insanların yaşaması qəti qadağan edilib. Eyni vəziyyət Yaponiyadadır. Hər iki stansiyanın təhlükəsi hələ də keçməyib.

### AES texnologiyası necə işləyir?

Atom Elektrik Stansiyası (AES)- bir və ya daha çox sayda nüvə reaktorunun yanacaq kimi radioaktiv maddələri istifadə edərək elektrik enerjisi istehsal edən stansiyadır. AES-lərin əsas yanacaq xammalı urandır.

Bu elementin dünyada mövcud ehtiyatı tam hesablanmasa da, quruda və suda olan uranın 400-500 ilə kifayət edəcəyi ehtimal olunur. Neft-qaz ehtiyatının isə cəmi 60-70 ilə kifayət edəcəyi proqnoz edilir.

AES-lərin əsas problemi təhlükəsizliklə bağlıdır. Apreldə 36-cı ildönümünü qeyd etdiyimiz dəhşətli Çernobıl qəzası hələ yaddaşlardan silinməyib. Həmşinin 2011-ci ildə Yaponiyada Fukusima AES-də baş verən qəza da yaddaşlardan silinməyib. Bunlardan başqa AES-lərdə yüzlərlə dəfə xırda qəzalar baş verib, bəzən möcüzə sayəsində faciə baş verməyib. Bu qəzalar bəzi ölkələri AES tikməkdən vaz keçməyə, bəzilərini isə mövcud AES-lərdən imtina etməyə vadar etdi.

Lakin, digər enerji növlərinə görə, atom enerjisinin xeyli ucuz başa gəlməsi hökumətləri "yoldan çıxarır". Çünki, enerji təhlükəsizliyi hər bir dövlət üçün ən vacib hala gəlib.

Bununla belə, AES-lərlə bağlı fikirlər birmənalı deyil, bəziləri iqtisadi səmərəni əsas tutub onların yaradılmasına tərəfdardır, digər qism alimlər isə, təhlükəsizliyi və əhalinin sağlamlığını iqtisadi səmərədən üstün tutub əleyhinə çıxış edirlər.

### İqtisadi cəhətdən sərfəli, insan həyatı üçün təhlükəli?

AES-lərin tarixi ötən əsrin ortalarından başlanır. 1954-cü ildə SSRİ-də (Rusiyanın Obninsk vilayətində) dünyanın ilk Atom Elektrik Stansiyası işə salınıb. Sonralar bu cür stansiyaların ABŞ və Avropada da tikilməsi ilə dünyada atom enerjisi erasına start verildi. Lakin SSRİ-də baş verən dəhşətli atom qəzası bu prosesi bir xeyli ləngitdi... Xüsusən də ona görə ki, Çernobıl AES dünyanın ən müasir texnologiyalı stansiyası idi və onun təhlükəsizlik səviyyəsi olduqcaz yüksək idi. Belə bir stansiyada qəzanın baş verməsi dünyada fəaliyyət göstərən, təhlükəsizlik və texniki cəhətdən ondan daha aşağı səviyyədə olan onlarla AES-də də belə təhlükənin olduğunu anladılar. Lakin bu qəza AES-ləşmə prosesini xeyli ləngitsə də dayandıra bilmədi.

2011-ci ildə Yaponiyadakı Fukusima AES qəzası isə növbəti xəbərdarlıq oldu. Bundan sonra bəzi ölkələr AES tikintisini dayandırmağa, köhnə AES-ləri bağlamağa qərar verdilər.

Azərbaycan da atom qəzasından zərər çəkə biləcək ölkələrdəndir. Belə ki, Ermənistanda istismar müddəti keçməsinə baxmayaraq hələ də seymik zonada fəaliyyət göstərən Metsamor AES hər an parttlaya biləcək bombadır və bu başqa versə bütün qonşu ölkələr faciə bəxş edəcək.

### Atom elektrin stansiyalarının sayı artır, təhlükə böyüyür

Bəzi alimlərin fikrincə, cəmi 60-70 illik ehtiyatı qalan neft və qazdan fərqli olaraq, dünyadakı uran ehtiyatları bundan sonra azı 500 ilə kifayət edəcək. Dünyanın ümumi uran ehtiyatlarının böyük hissəsi- 60 faizdən çoxu Avstraliya, Qazaxıstan və Kanadada cəmləşib. Qazaxıstan uran hasilatına görə liderdir. Bu elementə tələbatın artması nəticəsində indi uran uğrunda mübarizə qızışıb.

Məhz iqtisadi cəhətdən sərfəli olduğu üçün atomdan enerji almaq istəyən ölkələrin sayı çoxalır. 1978-ci ildə dünyada 200-dən artıq AES var idi. Hazırda bu rəqəm 450-ə yaxındır.

2030-cu ilədək isə, onların sayının azı 2 dəfə artacağı gözlənir. Artıq 70-dən artıq ölkə atom elektrik stansiyası tikəcəyi haqda MAQATE-ni xəbərdar edib və bu siyahı genişlənməkdədir.

İndi 4-cü nəsil nüvə reaktorları inşa olunur ki, bu texnologiyada qəza baş verməsinin mümkün olmadığı iddia edilir. Buna görə də, əksər dövlətlər AES yaratmağa meyillənib. Unutduqları bir şey var- dünyada 100 faiz təminatlı heç nə yoxdur, ola da bilməz, elə bir təbii fəlakət baş verər ki, heç bir qüvvə faciəinin qaşrısını ala bilməz. Məsələn, vulkan, zəlzələ və s.

Bununla yanaşı, qabaqlar AES-lərə malik olan, lakin sonradan öz əhalisinin sağlamlığına və təhlükəsizliyini daha üstün tutaraq onlardan imtina edən ölkələr də var- Avstriya, Danimarka, Filippin, İtaliya, Qazaxıstan. Almaniya da AES-ləri qapatmağa hazırlaşır.

### Radiasiya Problemləri İnstitutu ölkədə AES tikilməsini istəyir

AMEA-nın Radiasiya Problemləri İnstitutu hesab edir ki, nüvə texnologiyası Azərbaycana gəlməlidir və yaxın vaxtlarda bu müzakirə olunmalıdır. İnstitut hesab edir ki, atom stansiyasında alınan enerjinin qiyməti adi yolla alınandan təqribən 2 dəfə ucuz başa gəlir.

"Əlbəttə, atom stansiyaları yaratmaq böyük vəsait tələb edir. Məsələn, 1000 meqavat gücündə olan AES təxminən 5 milyard dollara başa gəlirsə, istilik stansiyası bundan 2 dəfə ucuzdur. Amma AES-dən əldə olunan enerjinin ucuzluğu sayəsində bu fərq 2 ilə aradan qalxa bilər.

Məsələn, biz 1000 meqavatlıq elektrik enerjisi stansiyası tikmək istəyirik. Neftlə işləyəndə 1 meqavatı əldə etmək üçün 1 mln ton neft yandırmalıyıq. Amma o biri variantda 10-13 ton uran yandırmalıyıq. Bu qədər neft yandırılanda atmosferə xeyli tullantı atılacaq. 10-13 ton uran yandırıldıqda isə atmosferə heç nə atılmır"- A.Qəribov bir neçə il qabaq mətbuata verdiyi açıqlamasında bildirmişdi.

Qeyd olunur ki, Azərbaycanı enerji ilə təmin etmək üçün ildə 50-60 ton uran kifayətdir. 1 milyon ton neftin qiyməti 600 mln dollardır. 60 ton uran isə cəmi 25 milyon dollara başa gəlir. Yəni, məsələnin iqtisadi tərəfi önə çəkilir.

AES tərəfdarları onu da qeyd edirlər ki, bu stansiyalarda havaya zərərli maddələr atılmır. Bəzi plutonium kimi təsirsiz qazlar çıxa bilər ki, onlar da xüsusi qurğular vasitəsilə tutulur.

### Böyük enerji resursları olduğu halda riskə getməyə dəyərmi?

Bir vaxtlar SSRİ Nazirlər Komitəsinin qərarı ilə Azərbaycanda AES tikmək barədə layihə də hazırlanmışdı. 80-ci illərdə Nəvai qəsəbəsi yaxınlığında yer də müəyyənləşdirilmişdi və tikintiyə başlanmışdı. Çernobıl faciəsi bu istiqamətdə aparılan işlərin dayandırılmasına səbəb oldu. İndi bu məsələ yenidən gündəmə gətirilir.

Əksər mütəxəssislər hesab edir ki, enerji qıtlığı ilə üzləşən ölkələrdən fərqli olaraq, böyük neft və qaz ehtiyatları olan Azərbaycanda atom enerjisindən istifadə məsələsini gündəmə gətirməyə belə ehtiyac yoxdur.

Ölkəmiz enerji tələbatını neft-qaz və alternativ enerji mənbələrinin hesabına ödəyə bilər, hətta böyük həcmdə enerji ixrac da edə bilər.

Nüvə tullantılarının konservasiya edilməsi də olduqca bahalı bir əməliyyatdır. Azərbaycan hələlik özünün hidroresurslarından, alternativ enerji mənbələrindən tam istifadə etmir. Külək və günəş stansiyalarının sayını çoxaltmaqla, üstəlik, kiçik SES-lər tikməklə enerji istehsalını xeyli artıra bilərik.

Təbiət bizə yerüstü və yeraltı enerji mənbələri bəxş edib. Hesablamalara görə, Azərbaycanın neft və qaz ehtiyatları ən pis halda 100 ilə kiyafət edəcək. Aydın olur ki, biz atomsuz da keçinərik.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
26 fevral
2022-ci il

# DİQQƏT: İnsanları ailədən uzaqlaşdıran SƏBƏBLƏR



***“Həmişə belə edirsən", "Sən, onsuz da, beləsən", "Diqqətsizsən" kimi fikirlərdən istifadə edən və ailə həyatında bir cür, sosial ortamlarda başqa cür davranışlar göstərən, həyat yoldaşının dərdinə və sevincinə ortaq olmayan, yalan söyləyən, hər iki cins üçün də keçərli olmaq üzrə məhrəm tələbləri cavabsız buraxan tərəflər bir-birilərinə qarşı sayğını da itirirlər.***

Gencaile.az bildirir ki, xoşbəxt evliliyə sahib olmaq hər kəsin arzusudur. Bu da bir reallıqdır ki, evində xoşbəxt ola bilməyən insan işində, cəmiyyət arasında da xoşbəxt ola bilməz. Əgər evində bir nigarançılıq varsa, insan mütləq özünü işdə, cəmiyyətdə də narahat hiss edəcək. Amma evində xoşbəxt olan adam istər işdə, istərsə də cəmiyyətdə üzləşdiyi çətinlikləri dəf etməyi bacarır. Bir atalar misalında deyildiyi kimi, ”əvvəl evin içi, sonra çölü”. Amma elə insanlar da var ki, el arasında deyildiyi kimi, evə getmək onlar üçün sözün həqiqi mənasında, əzab-əziyyətdir. Bu vəziyyətin yaranmasında onları qınamaq da olar, qınamamaq da. Bəs insanları ailələrindən uzaqlaşdıran səbəblər nələrdir?

Araşdırmalar göstərir ki, bu problemlərin sırasında diqqətsizlik xüsusi rol oynayır. Bu, özünü birbaşa büruzə verməsə də, tədricən, yeni münasibətlərə təsir göstərməklə əhatə dairəsini genişləndirir. Necə deyərlər, işdən evə dönən və xoş münasibət, üzdə təbəssüm uman kişi və ya xanım tam tərsi ilə qarşılaşınca, evdə mənəvi rahatlığı tapa bilmir.

Bu problemlər sırasında münasibətlərdəki anlaşılmazlıq və ya hansısa qərar qəbul edilərkən başqasının fikrinin nəzərə alınmaması kimi səbəblər də var. Bu məsələdə həm kişinin, həm də xanımın üzərinə böyük məsuliyyət düşür.

Türkiyəli psixoloq Cihad Kayanın sözlərinə görə, evlənmədən öncə qadının sevilməsinə səbəb olan məqamları evləndikdən sonra unutması, nəzərə almaması həyat yoldaşının ondan soyumasına səbəb olur.

Psixoloqun sözlərinə görə, bəzi xanımların geyim-kecimlərinə, özlərinə fikir verməmələri həssas kişiləri hətta ailələrindən belə soyuda bilir. Psixoloq: ”Hər bir xanım özü-özlüyündə bir növ kübar olmalıdır. Məsələn, o əgər evin bütün işlərini yerinə yetirir əsas diqqəti buna yönəldirsə, nəticədə özünü unudursa, həyat yoldaşına onun istədiyi qədər diqqət edə bilmirsə, kişi evindən və ailəsindən uzaqlaşır. Hətta uzaqlaşmasa belə, bir növ soyuyur”.

”Biz sizi həyat yoldaşlarınızla, analarınızla, atalarınızla, uşaqlarınızla, mallarınızla, canlarınızla imtahan edərik” ayətini xatırladan mütəxəssis: ”Bütün bunları gerçəkləşdirməsinə və ideal bir yoldaş olmasına rəğmən yüzlərcə xanımın aldadıldığı gerçəyini də göz ardı etməmək lazımdır”,- deyir.

Bu davranışlar evliliyə zərər verir!

İnadkar olmaq. Nə vaxtsa yerinə yetirilməyən tələbi, xahişi tez-tez gündəmə gətirib başa qaxınc etmək evliliyə zərər gətirir.

Diqqətsizlik. İşləməyən xanımların həyat yoldaşlarının alışqanlıqlarını və xasiyyətlərini bildikləri halda xəstəlik, gecə uşağa baxmaq kimi səbəbləri çıxmaq şərti ilə, başqa vaxtda nahar hazırlamamaları, onları işə gedərkən qapıdan yola salmamaları da incikliyə və narahatlığa səbəb ola bilir.

Bitməyən suallar. Kişini iş saatları içində məcburi səbəblər xaricində sıx-sıx arayaraq ”hardasan”, ”nə edirsən”, ”yanında kim var” suallarını vermək.

Güvənməmək. Həyat yoldaşının mobil telefonunu tez-tez yoxlamaq, onu rahat buraxmamaq, hətta nəqliyyatdakı problemlər səbəbindən eve gec gəldiyi zaman üz-gözünü turşutmaq və yersiz suallar vermək.

Ailə məhrəmiyyəti. Ailədə bir problem yaşanan kimi, valideynləri və ya qaynana-qaynatanı tapıb və ya onlara zəng vurub həyat yoldaşını şikayət etmək.

Sosial çevrəyə müdaxilə. Kişiyə onunla görüş, bununla görüşmə kimi təlimatlar vermək.

Yersiz qısqanclıq. Kişini öz anasından qısqanmaq, kişiyə anasını (qaynanasını) şikayət etmək, dava-dalaş zamanı onun ailəsini pisləmək.

Müqayisə etmək. Başqalarının öz həyat yoldaşlarına aldığı hədiyyələrdən danışmaq, müqayisə etmək və s.

Məsuliyyətlər. Kişi qapıdan girər-girməz, ondan uşaqlarla maraqlanmasını tələb etmək, ”al bu uşaqları, bütün gün məni öldürüblər” kimi cümlələrlə qarşılamaq.

Pis şeyləri unutmamaq. Keçmişdə olanları tez-tez xatırlayıb, problem və münaqişələr yaratmaq.

## Başsağlığı

**Musa Musayev Azər Səfərovun vəfatından kədərlənsiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin.**

# Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası

*aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün*

## Müsabiqə elan edir

**Simli alətlər kafedrası**
Professor
Professor, fəlsəfə doktoru

**Kamera ansamblı kafedrası**
Baş müəllim

**İxtisas fortepiano kafedrası**
Dosent, sənətşünaslıq namizədi
Baş müəllim

**Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar kafedrası**
Professor, elmlər doktoru

**Musiqi tarixi kafedrası**
Dosent, sənətşünaslıq namizədi

**Xor dirijorluğu kafedrası**
Baş müəllim

**Solo oxuma və opera hazırlığı kafedrası**
Dosent
Baş müəllim

”Şifahi, ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi”: orqanologiya və akustika elmi laboratoriyası
Elmi işçi
Elmi işçi
Elmi işçi

**Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır.**

**Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorunadına bu ünvana göndərilə bilər.**

**Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.**

# "Qalatasaray"ın rəqibi "Barselona" oldu!




UEFA Avropa Liqasında 1/8 final mərhələsinin püşkü atılıb. İsveçrənin Nyon şəhərində təşkil olunan tədbir Bakı vaxtı ilə saat 15:00-da keçirilib. Türkiyənin ”Qalatasaray” klubu bu mərhələdə ”Barselona”ya rəqib olub. Püşkün nəticələrinə görə, ”Reyncers” (Şotlandiya) - ”Srvena Zvezda” (Serbiya), ”Braqa” (Portuqaliya) - ”Monako” (Fransa), ”Portu” (Portuqaliya) - ”Lion” (Fransa), ”Atalanta” (İtaliya) - ”Bayer” (Leverkuzen, Almaniya), ”Sevilya” (İspaniya) - ”Vest Hem” (İngiltərə), ”Leyptsiq” (Almaniya) - ”Spartak” (Moskva, Rusiya), ”Betis” (İspaniya) - ”Ayntraxt” (Frankfurt, Almaniya) qarşılaşmaları keçiriləcək. Qeyd edək ki, bu mərhələnin ilk matçları martın 10-da, cavab görüşləri martın 17-də olacaq.

# Pis yuxu həyatınızdan neçə il aparir?



***Yuxu ilə bağlı çoxsaylı elmi araşdırmalar aparan Kaliforniya Universitetindən Professor Metyu Pol Uokerin "Biz niyə yatırıq" adlı kitabda yuxu ilə bağlı tədqiqatlar var. SİA xəbər verir ki, gündə 7- 7,5 saat yatmağın faydalıdır. Yuxusuzluq maddələr mübadiləsini yavaşladır. Eyni zamanda yuxusuzluq immuniteti zəiflədir və rus xəstəlikləri, yüksək qan təzyiqi, piylənmə, diabet, bəzi xərçəng növləri və hətta Alzheimer xəstəliyinə yol açır.***

Qripə yoluxma riskinizi 3 dəfəyə qədər artıran və digər virus xəstəlikləri üçün də oxşar risklər yaradan yuxusuzluq, peyvəndlə meydana gələn immun reaksiyanı da zəiflədir və qrip peyvəndi olma ehtimalını yarıya endirir. Uzun müddətdə bəzi xərçəng növlərinin riskini 40%-ə yaxın artırır. Hipertoniyanın inkişafına təkan verir. Ürək damarlarında lövhə əmələ gəlməsini 2-3 dəfə artırır. İnfarkt riskini 4 -5 dəfə artırır. Əvvəlcə insulin müqavimətinə,sonra isə şəkər xəstəliyinə səbəb olur.

Gecə yuxusu niyə daha dəyərlidir?

Bunun əsas səbəbi bədəndə ifraz olunan melatonin hormonu və böyümə hormonu ilə bağlıdır. Melatonin hormonu axşam saatlarında başlayan və gecə saat 02.00-03.00 arasında ifraz olunan və yuxuya getməyi asanlaşdıran bir hormon növüdür.

Bədənin inkişafını və hüceyrələrin çoxalmasını dəstəkləyən böyümə hormonunun ən yüksək nöqtələrə çatdığı dövr 23.00 və 00.00 saatlarını əhatə edən zaman intervalıdır. Buna görə də belə qənaətə gəlinir ki, saat 23.00 və 03.00 ən məhsuldar yuxu saatlarıdır.

***Nəzrin Əyyublu***

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**